16 fevral 2022 №13 (1886) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Türkiyə Prezidenti “Dubay Ekspo”da Azərbaycan pavilyonunu ziyarət edib

Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 15-də “Dubay Ekspo 2020” sərgisində Türkiyə milli gününün açılış mərasiminə qatılıb. Ərdoğan sərgidəki Azərbaycan pavilyonunu da ziyarət edib.



“Dubay Ekspo 2020”nin Azərbaycan üzrə baş komissarı, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov Türkiyənin dövlət başçısına pavilyonda qurulan ekspozisiya haqqında məlumat verib.

Türkiyə Prezidenti Azərbaycan incəsənət ustalarının ifasını dinləyib, xatirə şəkli çəkdirib.

Xatırladaq ki, 2020-ci ildə açılması nəzərdə tutulan, lakin pandemiya səbəbindən ertələnən “Dubay Ekspo” ötən il oktyabrın 1-dən fəaliyyətə başlayıb. 190 ölkənin təmsil olunduğu sərgi 2022-ci il martın 31-nə qədər davam edəcək.

Ölkəmiz sərgidə Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Gələcəyin toxumları” mövzusu ilə çıxış edir. Pavilyonda ölkəmizin aparıcı muzeylərinin fondlarından eksponatlar da nümayiş olunur, mütəmadi olaraq müxtəlif mədəni proqramlar təşkil edilir.

## Ermənistanla sülh olsun, amma yaşadığımız tarixi, barbarlığı heç vaxt unutmamalıyıq

Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Prezident İlham Əliyev bu sözləri fevralın 13-də Ağdam Cümə məscidində bərpa-restavrasiya işləri ilə tanış olduqdan sonra çıxışı zamanı söyləyib.

İşğaldan azad olunan ərazilərdə Heydər Əliyev Fondunun layihələrinin koordinatoru Sabiq Abdullayev dövlətimizin başçısına və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verib.

Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir. Heydər Əliyev Fondu tərəfindən məscidin bərpa-restavrasiya layihəsinə ötən il başlanılıb. Layihənin icrası üçün Avstriyanın “Brugger&KO Restauratoren GmbH” şirkəti ilə müqavilə imzalanıb.

Bildirilib ki, bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək. İlk mərhələdə örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tikilidəki kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü ahəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək.

Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə spiralvarı pilləkənlə qalxmaq mümkündür. Birinci mərhələdə qırıq birləşmələr, kafel başları və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic başları bərpa olunacaq. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək.

Namaz zalında birinci mərhələdə əsas kərpicdən başqa bütün gips çıxarılacaq və sonrakı iş mərhələləri üçün hazırlanacaq. Bütün otaqlarda əhəng əsasında yeni, üçqatlı suvaq sistemi tətbiq ediləcək, son qatda ilk versiyaya (ağ rəngli) uyğun mineral boya tətbiq olunacaq.

Görülən işlərlə tanış olan Prezident İlham Əliyev Ağdam rayonunda və ümumilikdə işğaldan azad olunmuş ərazilərdə başlanan bərpa və quruculuq prosesinin bu il daha və-



sətlə davam etdiriləcəyini deyib: “Kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq”.

davamı səh. 2-də

## “Mədəni yenilənmə”nin yeni qonağı

Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının birgə təşkilatçılığı ilə reallaşan “Mədəni yenilənmə” layihəsi davam edir. Layihənin 2022-ci ildə ilk tədbirinə Azərbaycanın Xalq artisti, TRT-nin Ankara Radiosu xorunun bədii rəhbəri və dirijoru Elnarə Kərimova və xor kollektivi dəvət olunub.

Fevralın 14-də Mədəniyyət Nazirliyində Elnarə Kərimova ilə görüş keçirilib. Fevralın 15-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında dirijor Elnarə Kərimovanın səhnə fəaliyyətinin 30 illik yubileyi münasibətilə konsert proqramı təqdim olunub.

səh. 3

## TÜRKSOY Fikrət Əmirovun 100 illiyi münasibətilə Ukraynada konsert keçirib

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY fevralın 12-də Ukraynanın Dnepr şəhərində görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun anadan olmasının 100 illiyinə həsr olunmuş konsert proqramı keçirib.

TÜRKSOY və Dnepropetrovsk Vilayəti Azərbaycanlıları Konqresinin (DVAK) təşkilatçılığı ilə gerçəkləşən konsertdə Azərbaycanın Xalq artisti, professor Yalçın Adıgözəlovun dirijorluğu ilə Dnepropetrovsk Akademik Simfonik Orkestri çıxış edib.

Konsertdən əvvəl səhnəyə çıxan TÜRKSOY-un baş katibi Düsen Kaseinov bildirib ki, 2022-ci il təşkilat tərəfindən “Fikrət Əmirovu anma ili” elan edilib. İl ərzində təşkilata üzv ölkələrdə, eləcə də TÜRKSOY-



un təşəbbüsü ilə müxtəlif şəhərlərdə böyük Azərbaycan bəstəkarına həsr olunmuş tədbirlər keçiriləcək. Bu qəbildən ilk tədbir Dneprdə reallaşıb.

Tədbir iştirakçılarını salamlayan Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Elmira Axundova qeyd edib ki, belə layihələrin həyata keçirilməsi ölkəmizlə, o cümlədən TÜRKSOY-a üzv olan dövlətlərlə Ukrayna arasında mədəni əlaqələrin yüksək olmasının göstəricisidir. Səfir bildirib ki, bu cür konsertlər Azərbaycan musiqisinin təbliğinə mühüm töhfədir. Diplomat vurğulayıb ki, Azərbaycanla Ukrayna arasında müxtəlif sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələr yüksələn xətlə inkişaf edir.

davamı səh. 8-də




## Türk dünyasının yeddi şəxsiyyəti ilə bağlı qısa filmlər çəkiləcək

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi və TÜRKSOY-un birgə dəstəyi ilə “Yed-i Velayet, 7 Vilayət” Beynəlxalq Qısa Filmlər Festivalı çərçivəsində Türk dünyasının şəxsiyyətləri ilə bağlı tematik ssenari müsabiqəsi elan olunub.

Festival “ehli Sənət” Sinema və Mədəniyyət Dərnəyi tərəfindən “Bursa 2022 – Türk Dünyasının Mədəniyyət Paytaxtı” ili çərçivəsində gerçəkləşəcək. Müsabiqəyə Türk dünyasının yeddi görkəmli şəxsiyyətinin həyat və yaradıcılığından, əsərlərindən bəhs edən qısa film ssenariləri qəbul olunur.

Ssenarilər Azərbaycandan Hüseyn Cavid, Qazaxıstandan Əhməd Baytursun, Qırğızıstandan Çingiz Aytmatov və Toktobolot Abdumomunov, Özbəkistandan Abdulhəmid Süleyman Çolpan, Türkiyədən Süleyman Çələbi və Türkmənistandan Məhtumkulu Fəraqi ilə bağlı olmalıdır.

Müsabiqənin yekununda hər şəxsiyyətlə bağlı bir – ümumilikdə 7 ən yaxşı ssenari mükafatlandırılacaq. Birinci yeri tutan ssenarilərə 3000 TL pul mükafatı veriləcək və onların əsasında qısa filmlər çəkiləcək. Müsabiqəyə müxtəlif dillərdə və fərqli ölkələrdən müraciətlər www.7kisafilm.com və www.7shortfilms.com internet saytları üzərindən 1 may 2022-ci il tarixinə qədər qəbul edilir.

## Şərti adı “Xarıbülbül”

Litvalı hərbi jurnalist, rejissor Riçard Lapaitis 44 günlük Vətən müharibəsinə həsr olunan sənədli film üzərində işləyir. Bu günlərdə sosial şəbəkə üzərindən onunla əlaqə saxlayıb işlərin gedişi barədə məlumat aldıq.

R.Lapaitis bildirdi ki, filmin ideya müəllifi özü olsa da, rejissorluğunu etməyəcək: “Bütün hazırlıq mərhələləri, ideya və fikir mənə məxsus olsa da, çox zaman erməni diasporu və bir sıra təşkilatlar məni birtərəfli mövqedə ittiham etdikləri üçün bu dəfə kənardan işləməyi daha uyğun hesab etdim. Hələlik şərti adı “Xarıbülbül” olan filmin bir neçə qəhrəmanını 2-3 ay axtarmalı oldum. Daha sonra işimizin nədən ibarət olduğunu tam bilən, mənim işə ciddi yanaşdığımı görəndən sonra yardımçı olmağa başladılar. Hazırda filmin komandası yığılıb və biz çəkilişləri reallaşdırırıq. Filmin çəkilişləri ilə bağlı Kəlbəcər, Qubadlı və Laçına bir daha səfər etməyimiz



lazımdır. Onu da qeyd edim ki, mənimlə birgə çalışan komanda ilə səkkiz aydır bu yolda, necə deyərlər, külüng vururuq. İki aya işimizi tamamlayacağıq...”.

davamı səh. 3-də

## Avropadakı diaspor təşkilatlarından UNESCO-ya müraciət

Azərbaycanın Avropadakı bir sıra diaspor təşkilatları tərəfindən UNESCO-nun Baş direktoru Odri Azuleyə müraciətlər ünvanlanıb.

Benelüks Azərbaycanlıları Konqresi, Niderland–Belçika Azərbaycanlıları Koordinasiya Şurası, Azərbaycan Fransa Mədəniyyət Assosiasiyası, “Odlar Yurdu” Niderland-Azərbaycan Assosiasiyası, Fransa-Azərbaycan Dialoqu Assosiasiyası tərəfindən ünvanlanan müraciətlərdə Ermənistan ərazisindəki Azərbaycan xalqının irsinə qarşı həyata keçirilmiş mədəni soyqırımı haqqında məlumat verilir. Bildirilir ki, Ermənistanın apardığı məqsədyönlü siyasət nəticəsində xalqımızın bu ölkə ərazisindəki yüz illərlə tarixə malik mədəni irsi tamamilə yox olma təhlükəsi ilə üzləşib.

Qeyd olunur ki, əsrlər boyu öz doğma torpaqları olan bugünkü Ermənistan ərazisindən 1988-ci ildə həyata keçirilmiş sonuncu deportasiya nəticəsində 250 mindən çox azərbaycanlı öz yurdlarından qovularaq qaçqına çevrilib. Ermənistanda bu illər ərzində məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparılmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izləri hər yerdən silinib, Azərbaycan xalqının mədəni irsi talanıb, özününküləşdirilib, məhv edilib, xalqın dəyişdirilib, azərbaycanlıların yaşadıqları ərazilərdəki qədim toponimlər erməni adları ilə əvəzlənib.

davamı səh. 2-də

## “Şuşa İli”ndə Bülbülcan yad olundu

Beynəlxalq Muğam Mərkəzinin (BMM) “Dəyirmi masa” layihəsinin “Şuşa İli”ndə ilk tədbiri şuşalı məşhur xanəndə, Qarabağ muğam məktəbinin görkəmli nümayəndəsi Bülbülcanın 180 illik yubileyinə həsr edilib.

Yeni formatda – elmi-nəzəri və musiqili layihə şəklində keçirilən tədbirdə xanəndənin həyat və yaradıcılığından, muğam sənətinə verdiyi töhfələrdən söz açıldı.

səh. 6

## “Nizami Gəncəvini oxuyaq” Kiyevdə təqdim edilib



səh. 3

## Moskvada Azərbaycan kinosu günləri başa çatıb

Müştərək film layihələri istiqamətində danışıqlar aparılıb

səh. 3



## Zorla şərgöz olmaq?

səh. 5

№13 (1886)
16 fevral 2022
www.medeniyyet.az

# Ermənistanla sülh olsun, amma yaşadığımız tarixi, barbarlığı heç vaxt unutmamalıyıq

*əvvəli səh. 1-də*

Prezident Ağdam şəhərində sənaye parkında yeni müəssisələrin təməlinin qoyulmasının əlamətdar hadisə olduğunu deyib: "Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq beş rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq...".

### İş adamlarına çağırış: azad edilmiş ərazilərə sərmayə qoyun!...

Dövlət başçısı iş adamlarına da çağırış edib: "Azərbaycan iş adamlarına da mən bu gün burada – Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir... Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar".

Prezident diqqətə çatdırıb ki, Ağdamda iki yarımstansiyanın açılışı ilə azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Bundan əlavə, təməli qoyulan mehmanxana təqribən iki ildən sonra fəaliyyətə başlayacaq. Buraya böyük sayda gələcək qonaqlara indi şərait yaradılır: "Əlbəttə ki, bu gün qeyd etdiyimiz hadisələrdən biri də yaşayış kompleksinin təməl daşının qoyulmasıdır. Altı evdən ibarət yaşayış kompleksi təqribən il yarıma – iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq. Bu gün, eyni zamanda, Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulur. Əlbəttə ki, 210 çarpayılıq xəstəxana ağdamlılara tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradacaq.

Keçən dəfə Ağdamda olarkən mən burada 1 nömrəli məktəbin təməlini qoydum. O məktəbdə təqribən minə yaxın şagird oxuyacaq. Yəni, bir daha demək istəyirəm, kompleks tədbirlər görülür – elektrik enerjisi ilə təchizat, Ağdama qaz xətlərinin çəkilişi layihəsi indi işlənilir, içməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi builki İnvestisiya Proqramında vardır, yaşayış binaları, mehmanxana, iş yerləri. Yəni, bu, hərtərəfli inkişaf deməkdir. Elə bu gün açılışında və təməlqoyma mərasimində iştirak etdiyim obyektlərdə biz bu genişmiqyaslı işləri görə bilərik.



Bununla yanaşı, Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmiryolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Mənim göstərişimlə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq".

Dövlət başçısı daha sonra deyib: "Bu işlər bir daha onu göstərir ki, biz vaxt itirmədən, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq".

### Tarixi, dini abidələrimizi də bərpa edirik

Prezident vurğulayıb ki, qarşımızda böyük işlər var. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün düşünülmüş addımlar planı olmalıdır: "Bütün şəhərlər Baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin Baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu Baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin Baş planları işlənilir...".

İşğaldan azad olunan ərazilərdə bərpa və quruculuq işlərində mədəni irsə xüsusi diqqət ayrıldığını vurğulayan İlham Əliyev deyib: "Görülmüş bütün bu işlərlə yanaşı, əlbəttə ki, biz tarixi, dini abidələrimizi də bərpa edirik. Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır".

Prezident qeyd edib ki, bu işlər Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir: "Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər".

Ağdama və Şuşaya avtobus marşrutlarının da təşkil edildiyini deyən İlham Əliyev bildirib ki, ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar buraya gələrək otuz ilə yaxın davam etmiş bu barbarlığı, bizim hansı bəla ilə üz-üzə olduğumuzu görürlər və bu tarixi heç vaxt unutmamalıyıq: "Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!"



***

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər zamanı "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak ediblər.

Prezident Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpa olunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və xalça istehsalı müəssisələrinin, "Park Forest Hotel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməllərini qoyub.

"PMD Projects" MMC-nin rəhbəri Nəriman Topçibaşev layihələr barədə məlumat verib. Bildirib ki, 2,16 hektar ərazidə inşa ediləcək mehmanxana 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, istirahət zonaları yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin sonunda başa çatdırılması nəzərdə tutulub. Ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında yekunlaşması planlaşdırılır.

Dövlətimizin başçısı və birinci xanım Qarabağ xanlarının Ağdamdakı türbələri və yaşayış evi – İmarət kompleksinə də baş çəkiblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.

Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin – Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, onun qızı, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın, şair Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xanı nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

---

## Avropa Muzey Təşkilatları Şəbəkəsinin heyəti Bakıda

### Muzeylərin inkişafı və muzey idarəçiliyi ilə bağlı ustad dərsi

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (DTMQİ) üzvü olduğu Avropa Muzey Təşkilatları Şəbəkəsinin (NEMO) icraçı direktoru və idarə heyətinin üzvləri Azərbaycana gəlib.




"İçərişəhər" DTMQİ-nin mətbuat xidmətindən bildirilib ki, səfər çərçivəsində fevralın 14-də muzey əməkdaşları üçün muzey işinin təşkili və idarə olunmasına dair ustad dərsi təşkil edilib.

"İçərişəhər" Muzey Mərkəzinin və Bakı şəhərində fəaliyyət göstərən 10-a yaxın muzeyin əməkdaşlarının qatıldığı tədbirdə muzeylərin davamlı inkişafı, ictimaiyyətlə iş, ziyarətçilərin cəb edilməsi, muzey idarəçiliyi, Azərbaycan muzeylərinin kolleksiyalarında zəngin irslə bağlı aktual mövzular müzakirə olunub. Ustad dərsində NEMO-nun Avropanın 6 ölkəsinin (Almaniya, Norveç, Sloveniya, Estoniya, Niderland, Belçika) muzey assosiasiyalarının rəhbərlərindən ibarət olan idarə heyəti tərəfindən mövzular üzrə təqdimatlar edilib.

"İçərişəhər" DTMQİ-nin İdarə Heyətinin sədri Əsgər Ələkbərov və NEMO-nun icraçı direktoru Julia Pagel çıxış edərək tədbirin Azərbaycan və Avropa muzeyləri arasında qarşılıqlı əlaqələrin inkişafı baxımından önəmli olduğunu vurğulayıblar.

Tədbirdə Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva da çıxış edib.

Fevralın 15-də "İçərişəhər" DTMQİ-nin ev sahibliyi etdiyi NEMO İdarə Heyətinin iclası keçirilib.

---

## Milli Xalça Muzeyinin direktoruna Fransanın ordeni təqdim olunub

Azərbaycan Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova Fransanın "İncəsənət və Ədəbiyyat" ordeninin kavaler rütbəsi ilə təltif olunub. Bu münasibətlə Fransanın Azərbaycandakı səfirinin iqamətgahında tədbir keçirilib.

Tədbirdə çıxış edən səfir Zakari Qross Şirin Məlikovanın Azərbaycan-Fransa mədəni əlaqələrinin inkişafı istiqamətində gördüyü işlərdən danışıb. Qeyd edib ki, Şirin Məlikova bir çox sərgilərin kuratoru, kitab və elmi məqalələrin müəllifi, Şərq xalçaçılıq sənəti üzrə mütəxəssisdir. Bu yaxınlarda Fransa səfirliyi ilə əməkdaşlıq çərçivəsində sərginin keçirilməsində də iştirak edib. "Mədəniyyət əlaqələrinə verdiyiniz töhfələrə görə sizə minnətdarlığımızı bildirirəm" deyən səfir ordeni Şirin Məlikovaya təqdim edib.

Şirin Məlikova çıxışında səfirə minnətdarlığını bildirib: "İncəsənət və Ədəbiyyat" ordeninin kavaler rütbəsini mənə təqdim etdiyiniz üçün minnətdarlığımı bildirirəm. Bu gün Azərbaycan-Fransa əlaqələri yüksək səviyyədə inkişaf edir. Bu işdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mühüm rolu var. Heydər Əliyev Fondunun dəstəyi ilə Fransanın müxtəlif şəhərlərində mədəniyyətə həsr olunmuş tədbirlər keçirilir və bu artıq bir ənənəyə çevrilib. Fransanın Azərbaycandakı Səfirliyi bizi Fransa mədəniyyəti ilə tanış edir, tez-tez müxtəlif tədbirlər təşkil olunur. Onu da qeyd edim ki, fransızlar bizim xalçalarımızı çox bəyənir. Xalçalarımız Fransa muzeylərində və şəxsi kolleksiyalarda qorunub saxlanılır. Biz bundan sonra da mədəni əlaqələri inkişaf etdirəcəyik".




---

## Avropadakı diaspor təşkilatlarından UNESCO-ya müraciət

*əvvəli səh. 1-də*

Müraciətlərdə UNESCO-ya ünvanlanmış əvvəlki məktublarda qeyd olunmuş faktlar bir daha təqdim edilir. Ermənistanda yerləşən Göy məscid, Qala məscidi, Şah Abbas, Təpəbaşı, Zal xan, Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Hacı İnam məscidləri kimi 300-dən çox məscid XX əsrin əvvəllərində qəsdən dağıdılıb və ya digər məqsədlərlə istifadə edilib.

Ermənistanda azərbaycanlılara məxsus Ağadədə, Aşağı Şorca, Güllübulaq, Saral qəbiristanlıqları kimi 500-dən çox qəbiristanlıq məhv edilib. Qədim Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmış Azərbaycan xalqının böyük şairi Aşıq Ələsgərin də qəbri dağıdılıb.

"Bu, Ermənistanda Azərbaycan xalqına qarşı mövcud olan dözümsüzlüyün bariz nümunəsi olmaqla yanaşı, eyni zamanda, bütün insanlığa qarşı olan bir həqarətdir. Bütün bunlar onu göstərir ki, Ermənistan heç bir ümumbəşəri dəyəri tanımır. Bütün bu qanunsuz əməllərin, onillərlə davam edən vandallıq əməllərinin cəzasız qalması isə dünya ictimaiyyətinə yanlış mesaj vermiş olur. Dünya ictimaiyyəti bu kimi addımların Ermənistanda dövlət siyasəti olmasını anlamalı və buna qarşı addımlar atmalıdır", – deyə müraciətdə vurğulanır.

Müraciətlərdə "Mədəni abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününküləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci illər konvensiyalarının kobud şəkildə pozulduğu diqqətə çatdırılır. Qeyd olunur ki, BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi 2347 saylı tarixi qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması, həmçinin sülh və təhlükəsizlik məsələsidir: "Məhz bütün bunları əsas gətirərək biz Azərbaycan xalqının çoxəsrlik tarixi olan mədəni və tarixi irsinin hazırkı vəziyyətinin qiymətləndirilməsi üçün Ermənistana ekspert qrupunun göndərilməsini Sizdən xahiş etmişdik. Təəssüf ki, öz məkrli və qanunazidd əməllərini gizli saxlamaq üçün Ermənistan belə bir missiyanın həyata keçirilməsinə qarşı olmuşdur.

Lakin 4 fevral 2022-ci il tarixində Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatdakı görüşünün nəticəsi olaraq razılıq ifadə olunub ki, UNESCO-nun Ermənistana və Azərbaycana missiyası həyata keçiriləcək. Bu xəbər bizi ruhlandırdı və Sizə növbəti müraciəti ünvanlamağa təkan verdi".

Müraciətdə belə bir ümid ifadə olunur ki, bu görüş zamanı öz üzərinə öhdəlik götürən Ermənistan UNESCO missiyasının reallaşmasına maneələr yaratmayacaq və bu missiyanın obyektiv hesabatı nəticəsində bütün dünya Azərbaycan xalqının çoxəsrlik irsinə qarşı törədilmiş əməllərdən xəbərdar olacaq. Ermənistan isə öz əməllərinə görə məsuliyyət daşıyacaq.

# "Mədəni yenilənmə"nin yeni qonağı

## Mədəniyyət Nazirliyində Xalq artisti Elnarə Kərimova ilə görüş keçirilib

Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının birgə təşkilatçılığı ilə ötən il başlanan və böyük maraqla qarşılanan "Mədəni yenilənmə" layihəsi bu il də davam etdirilir. Layihənin yeni ildə ilk tədbirinə Azərbaycanın Xalq artisti, TRT-nin (Türkiyə Radio və Televiziya Qurumu) Ankara Radiosu xorunun bədii rəhbəri və dirijoru Elnarə Kərimova və xor kollektivi dəvət olunub.



Qeyd edək ki, Elnarə Kərimova 1992-ci ildən qardaş Türkiyədə yaradıcı fəaliyyətlə məşğuldur. TRT Çoxsəsli xoruna rəhbərlik etməklə yanaşı, "Orfeon" kamera xoru ilə işləyib, TÜRKSOY-un nəzdində yaradılan xor kollektivinin rəhbəri olub, bu kollektivlərlə müxtəlif ölkələrdə qastrollarda, festivallarda çıxış edib.

Fevralın 14-də mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Xalq artisti Elnarə Kərimova ilə görüşüb. Elnarə Kərimovanın səhnə fəaliyyətinin 30 illiyi münasibətilə sənətkarı təbrik edən Elnur Əliyev ona yeni yaradıcılıq uğurları arzulayıb. Bildirib ki, dünyanın müxtəlif ölkələrində çalışan incəsənət xadimlərimiz ölkəmizin mədəni fəxrləridir.

Nazirlik tərəfindən mədəniyyətimizin inkişafı və təbliği istiqamətində həyata keçirilən layihələr barədə Xalq artistinə məlumat verən Elnur Əliyev qədim tarixə və zəngin ənənələrə malik mədəniyyətimizin təbliğində xaricdə yaşayan həmvətənlərimizin xüsusi rol oynadığını vurğulayıb. Diqqətə çatdırıb ki, sənətinin peşəkarı olan və xaricdə mədəniyyətimizi təbliğ edən insanlar yeni kadrların yetişməsində yaxından iştirak etməli, töhfələrini əsirgəməməlidirlər. Mədəniyyətimizin gələcəyə ötürülməsi missiyası həm də onların öhdəsinə düşür.

Xalq artisti Elnarə Kərimova səmimi qəbula görə təşəkkürünü bildirib. Sənətkar "Mədəni yenilənmə" layihəsinin əhəmiyyətini qeyd edib, fikir və təkliflərini dilə gətirib.

Qeyd edək ki, 2021-ci ilin oktyabrından həyata keçirilən "Mədəni yenilənmə" layihəsinin məqsədi xaricdə yaşayan, musiqi, teatr, kino, ədəbiyyat və elm sahəsində peşəkar uğurlara imza atmış istedadlı soydaşlarımızın fəaliyyəti ilə Azərbaycan cəmiyyətini tanış etmək, onlarla davamlı təmaslar yaratmaqdır.

***

Fevralın 15-də layihə çərçivəsində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında dirijor Elnarə Kərimovanın səhnə fəaliyyətinin 30 illik yubileyi münasibətilə konsert proqramı təqdim olunub.

Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva və mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev konsertdə iştirak ediblər.

Gecədə dirijorun rəhbərliyi ilə TRT Ankara Radiosu xorunun ifasında bəstəkarların xor əsərləri səsləndirilib.

Yubiley axşamı və konsert proqramı barədə ətraflı qəzetin növbəti sayında məlumat verəcəyik.

Səfər çərçivəsində Türkiyə və Azərbaycanın birgə layihəsi kimi dirijor, Xalq artisti Rauf Abdullayevin rəhbərliyi ilə TRT Ankara Radiosu xoru, Azərbaycan Dövlət Xor Kapellası və Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında dahi Azərbaycan bəstəkarı Qara Qarayevin "Zəfər marşı"nın səs yazısı da nəzərdə tutulub. Xatırladaq ki, bu əsər orijinalda "Dəniz neftçilərinin mahnısı" adlanırdı. E.Kərimovanın təşəbbüsü və Qara Qarayevin oğlu Fərəc Qarayevin razılığı ilə əsərin rus dilində olan sözləri Azərbaycan dilinə tərcümə edilib və "Zəfər marşı"nın yeni səs yazısı xalqımızın Qarabağ Zəfərinə həsr olunub.

Fevralın 17-də isə YARAT Müasir İncəsənət Məkanında "Mədəni yenilənmə" layihəsi çərçivəsində Elnarə Kərimovanın Azərbaycanın xor kollektivləri üçün xor ifaçılığı üzrə ustad dərsi olacaq.

# "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgisi davam edir

Ötən il milli təsviri sənətin görkəmli nümayəndəsi, Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyi bir sıra tədbirlər həyata keçirib.



22 dekabr 2021-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində açılan "Həyata sevgi ilə: Mikayıl Abdullayev" adlı sərgi də sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Mikayıl Abdullayevin 100 illik yubileyinə həsr olunmuş sərgidə sənətkarın zəngin yaradıcılıq irsi – Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Musiqi Mədəniyyəti Dövlət Muzeyinin kolleksiyasından əsərlər nümayiş olunur. Xüsusi zövq və dizaynla hazırlanmış ekspozisiyada nümayiş olunan rəngkarlıq, qrafika nümunələri, tematik tablo, portret və mənzərə janrlarında əsərlər Mikayıl Abdullayevin rəngarəng sənət duyumunu əks etdirir.

Azərbaycan Milli İncəsənət Muzeyində "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgisi aprel ayının 30-dək davam edəcək.

# Filarmoniyada klassik musiqi axşamı

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin konserti keçirilib.



Fevralın 11-də gerçəkləşən konsertdə istedadlı solistlər – Əməkdar artist Aleksey Miltıx (violonçel) və beynəlxalq müsabiqələr laureatı Nəzrin Aslanlı (skripka) səhnəyə çıxıblar.

Musiqi axşamında əvvəlcə İ.Bramsın skripka və violonçel üçün qoşa konserti səsləndirilib. Qeyd edək ki, müəllif bu əsəri skripkaçı Jozef İoaxima və violonçel ifaçısı Robert Hausman üçün bəstələyib.

Proqramda yer alan ikinci əsər isə Sergey Raxmaninovun mi minor notlu ikinci simfoniyası olub. Bəstəkar bu əsəri müəllimi Sergey Taneyevə həsr edib.

Klassik musiqi həvəskarları solistlərin məharətli ifalarından böyük zövq alıb, onları alqışlarla mükafatlandırıblar.

**Lalə**

# Şərti adı "Xarıbülbül"

## Litvalı jurnalist Vətən müharibəsi haqqında sənədli film çəkir



***əvvəli səh. 1-də***

Çəkiliş prosesinin çətinlikləri barədə danışan R.Lapaitis dedi: "Bəzən həmin ərazilərdə gecələməli oluruq. Bu da çox təhlükəlidir. Bilirsiniz ki, ərazilər hələ minalardan tam təmizlənməyib".

Onu da öyrəndik ki, ekran işi ərazilərimiz Ermənistan tərəfindən işğal altında saxlanıldığı otuz ilə yaxın müddətdə mədəni irsimizə qarşı həyata keçirilən vandalizm siyasəti ilə yanaşı, insan talelərinə də işıq salacaq.

Qeyd edək ki, Riçard Lapaitis litvalı rejissor Andreas Brokasın Xocalı soyqırımından bəhs edən "Sonsuz dəhliz" (2014) sənədli filmindən bizə tanışdır. Film Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində çəkilib. Ekran işi Xocalı dəhşətlərinin şahidi olan jurnalist Riçard Lapaitisin faciədən 20 il sonra yenidən Azərbaycana gələrək qətliamdan xilas olmuş hadisə şahidləri ilə görüşlərində lentə alınmış xatirələri əsasında qurulub. O vaxt jurnalist belə demişdi: "Niyə elə hey Xocalıdan danışıram? Susmaq cinayətkarlarla əlbir olmaqdır!".

Yeni filmlə bağlı musiqişünas, professor Zümrüd Dadaşzadə sosial şəbəkə səhifəsində paylaşım edib: "Azərbaycanın ən ağır günlərində yanımızda olan Riçard Lapaitis. Onun "Sonsuz dəhliz" filmi silah oldu əlimizdə – o zaman ki heç kəs bizi eşitmək istəmirdi. Riqada iki dəfə mərkəzi meydanlarda nümayiş etdirdik. Bir dəfə də "European House"da. Ondan sonra bilən bilir nə qədər hədələyici məktublar yazıldı səfirliyimizin ünvanına. İndi isə Riçard yeni film üzərində çalışır. Çox böyük intizarla gözləyirik. Xocalı faciəsindən düz 30 il keçir...".

**L.Azəri**

# "Nizami Gəncəvini oxuyaq" – TÜRKSOY-un art-albomu Kiyevdə təqdim edilib

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Nizami Gəncəvinin 880 illiyi münasibətilə nəşr etdiyi "Nizami Gəncəvini oxuyaq" ("Reading Nizami Ganjavi") art-albomu Kiyevdə – Ukrayna Milli Yazıçılar İttifaqında təqdim edilib. Qeyd edək ki, ingilis dilində nəşr olunan art-albomun indiyədək bir sıra şəhərlərdə təqdimatı keçirilib.

Kiyevdəki təqdimat TÜRKSOY, Ukrayna Milli Yazıçılar İttifaqı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycanın Ukraynadakı Səfirliyinin təşkilatçılığı ilə gerçəkləşib.

Ukrayna Milli Yazıçılar İttifaqının rəhbəri Mixail Sıdorjevski mərasimi açaraq TÜRKSOY-un Baş katibi Düsen Kasienovun rəhbərlik etdiyi nümayəndə heyətini salamlayıb, Ukrayna-türk ədəbi layihələrinə töhfə verməkdən məmnunluğunu bildirib. Mixail Sıdorjevski deyib: "Nizami dünya miqyaslı dahidir. Bu görkəmli azərbaycanlının xatirəsi Ukrayna cəmiyyətində də ehtiramla yad edilir. Nizaminin əsərlərinin tərcüməçiləri arasında Ukrayna ədəbiyyatının klassikləri Leonid Pervomayski, Vasıl Barka, Vasıl Mısık, Mıkola Miroşniçenko və başqaları, Nizami yaradıcılığının ukraynalı tədqiqatçıları arasında Aqafangel Krımski, Lev Lopatınski, Mıkola Qulak kimi məşhurlar var. Biz Nizami Gəncəvi irsinin Ukraynada populyarlaşdırılmasına öz töhfəmizi verməyə şadıq...".

Düsen Kaseinov TÜRKSOY-un iştirakı ilə Ukraynada həyata keçirilmiş tədbirlər barədə məlumat verib. Qeyd edib ki, Ukrayna auditoriyasının türk mədəniyyətinə, o cümlədən Azərbaycan mədəniyyətinə maraq göstərməsi çox sevindirici haldır: "İngilis dilində nəşr edilmiş "Reading Nizami Ganjavi" adlı art-alboma dahi şair və mütəfəkkirin əsərlərindən ilham almış türk rəssamlar tərəfindən çəkilmiş tablo və miniatürlər daxil edilib. Bu kitab Nizami irsinin Ukrayna cəmiyyətinə hərtərəfli təqdim edilməsinə mühüm töhfə olacaq...".



Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova keçən il Xarkovda Nizami Gəncəvinin abidəsinin ucaldıldığını, Heydər Əliyev Fondunun dəstəyi ilə Taras Şevçenko adına Kiyev Milli Universitetinin Nəbatat bağında Azərbaycanın böyük şair və mütəfəkkirinin heykəl kompozisiyasının qoyulacağını diqqətə çatdırıb. O, həmçinin səfirlik tərəfindən Nizaminin "Xəmsə"sindəki beş poemadan parçalar daxil edilmiş kitabın Ukrayna dilində nəşr edilməsi haqqında məlumat verib.

Ukrayna Milli Elmlər Akademiyasının V.İ.Vernadski adına Ukrayna Milli Kitabxanasının şöbə müdiri Tatyana Dobko keçən il aparılmış "Nizami Gəncəvi Ukrayna dilinə tərcümə və araşdırmalarda (1917-2021)" adlı biblioqrafik tədqiqat barədə danışıb. Qeyd edib ki, bu, Nizami əsərlərinin Ukrayna dilinə tərcümələri, ukraynalı alimlərin Nizami haqqında məqalələri, elmi konfranslar barədə tam və sistemləşdirilmiş biblioqrafiyadır.

Ukrayna Milli Elmlər Akademiyasının Aqafangel Krımski adına Şərqşünaslıq İnstitutunun elmi katibi, tarix elmləri namizədi Olqa Mavrina institutun Ukrayna-türk layihələrində, o cümlədən Nizami Gəncəvinin ədəbi irsinin tədqiqatına yönəlmiş layihələrdə iştirakı barədə məlumat verib.

"Kiyev-Mogilyanski Akademiyası" Milli Universitetinin professoru Fərhad Turanlı Nizami Gəncəvinin "Xəmsə" kitabının nəşrə hazırlanmasında fəaliyyəti barədə danışıb.

Tədbirin moderatoru, Ukrayna-türk layihələrinin kuratoru Marina Qonçaruk Ukraynada Nizami əsərlərinin tərcümələri və araşdırmaları, "Yaroslavov Val" nəşriyyatının direktoru Svetlana Koronenko Nizaminin "Leyli və Məcnun" poemasının Ukraynada nəşri (Azərbaycan Dövlət Tərcümə Mərkəzinin layihəsi) və təqdimatından söz açıb.

Tədbirdə Taras Şevçenko adına Kiyev Milli Universitetinin tələbəsi Emiliya Məmişova Nizaminin qəzəllərini Azərbaycan dilində, Kiyev Milli Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Darya Ponomarenko Nizaminin "Leyli və Məcnun" poemasından parçanı Ukrayna dilində söyləyib.

Ukrayna Milli Akademik Xalq Çalğı Alətləri Orkestrinin üzvü Marina Vişnevskaya "Sarı gəlin" Azərbaycan xalq mahnısının melodiyasını və Fikrət Əmirovun "Noktürn" əsərini bandurada ifa edib. Ukraynanın Xalq artisti Qurban Abbasov Nizaminin şeirlərinə yazılmış mahnıları oxuyub.

Tədbir çərçivəsində TÜRKSOY mükafatlarının təqdim edilməsi mərasimi də keçirilib. Məşhur Ukrayna şairi, türk xalqları, o cümlədən Azərbaycan ədəbiyyatının tərcüməçisi Pavel Movçana TÜRKSOY-un 2019-cu ildə təsis etdiyi "İmadəddin Nəsimi" medalı, Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundovaya və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Ukraynadakı nümayəndəsi Marina Qonçaruka "Nizami Gəncəvi" medalı təqdim edilib.

Ukrayna Milli Yazıçılar İttifaqının rəhbəri Mixail Sıdorjevski, eləcə də tədbirdə çıxış edən ukraynalı və azərbaycanlı sənətçilər, tələbələr xatirə hədiyyələri və fəxri fərmanlarla təltif edilib.

Xatırladaq ki, TÜRKSOY-un "Nizami Gəncəvini oxuyaq" art-albomunun fevralın 11-də Ukraynanın Dnepr şəhərində də təqdimatı olmuşdu.

# Moskvada Azərbaycan kinosu günləri başa çatıb

## Rusiyalı həmkarlarla müştərək film layihələri istiqamətində danışıqlar aparılıb




Moskvadakı "İllüzion" kinoteatrında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə birgə layihə əsasında gerçəkləşən Azərbaycan kinosunun retrospektiv nümayişi başa çatıb.

7-15 fevral tarixində təqdim olunan proqram Azərbaycan kinosunun ötən əsrin 30-cu illərindən 2021-ci ilədək – müxtəlif dövrlərdə çəkilmiş filmlər – ümumilikdə 19 ekran əsərindən ibarət idi. Layihənin kuratorları Mədəniyyət Nazirliyinin Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov və "İllüzion" kinoteatrının art-direktoru Aleksandra Lavrovadır.

Xəbər verdiyimiz kimi, retrospektiv nümayiş C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının direktoru, rejissor Fariz Əhmədovun "Sonuncu" (2021) sənədli filmi ilə açılıb. Rusiya paytaxtında Azərbaycan kinosu günlərinin iştirakçısı olan Fariz Əhmədov AZƏRTAC-a müsahibəsində təəssüratını bölüşüb, eləcə də milli kinomuzun qarşısında duran vəzifələrdən, görülən işlərdən və mövcud problemlərdən danışıb.

Moskvada ilk dəfə Azərbaycan kinosunun belə geniş həcmdə retrospektiv nümayişinin ümumilikdə mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu vurğulayan rejissor "İstər Moskva sakinlərinin, istərsə də rusiyalı kinematoqrafçıların Azərbaycan kino günlərinə marağı, əlbəttə, bizi sevindirməyə bilməz" deyə əlavə edib.

"Azərbaycanfilm"in direktoru qeyd edib ki, bu layihə Rusiya ilə kinematoqrafiya sahəsində əməkdaşlığın genişləndirilməsi yönündə də mühüm zəmin olacaq. "Azərbaycan kinosu. Retrospektiv" proqramında iştirak etmək üçün Mədəniyyət Nazirliyinin şöbə müdiri Rüfət Həsənovun rəhbərliyi ilə Moskva şəhərinə ezam olunan nümayəndə heyəti müxtəlif dövlət və özəl kino şirkətləri, yayım və distribusiya şirkətləri ilə görüşlər keçirib. Bu görüşlər zamanı iki ölkə arasında kino sahəsində əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə edilib, müştərək film layihələrinin reallaşdırılması istiqamətində danışıqlar aparılıb. "Mühüm görüşlərdən biri də Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetinin (VGİK) rəhbərliyi ilə oldu. Kino təhsili ilə bağlı ilkin müzakirələr və fikir mübadiləsi aparıldı. Düşünürəm ki, yaxın müddətə bu danışıqların real nəticələrini görə biləcəyik...", – deyə Fariz Əhmədov bildirib.

# Abidələrlə bağlı yeni Dövlət Proqramının hazırlanması təklif olunur

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin abidələrlə bağlı fəaliyyətinin, planlaşdırma və koordinasiyanın təmin edilməsi üçün yeni Dövlət Proqramının hazırlanması təklif olunur.

Bu məsələ Hesablama Palatasının "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyəti üzrə səmərəlilik (performans) auditinin nəticələrinə dair hesabatında qeyd olunub.

Auditor hesabatında abidələrin bərpası, konservasiyası və mühafizəsi üzrə fəaliyyətlərin təşkili, aparılması və müvafiq fəaliyyətlərin koordinasiya məsələlərini, müddətləri və məqsədləri əhatə edən gələcək dövr üçün yeni Dövlət Proqramının layihəsinin hazırlanması tövsiyə olunur.

Eyni zamanda müvafiq qaydada inventarizasiya aparılmaqla mövcud olmayan, eləcə də təkrarən reyestrə salınmış abidələrin siyahıdan çıxarılması, yeni aşkar olunmuş, eləcə də dövlət mühafizəsinə götürülməmiş aşkar şəkildə abidə əlamətli tikililərin siyahıya daxil edilməsi, abidələrin ünvanlarının dəqiqləşdirilməsi ilə siyahının yenilənməsi təklif olunur.

Auditor hesabatında abidələr üzrə məsuliyyətlərin daha dərindən qavranılması üçün abidələrin balans mənsubiyyətinin dəqiqləşdirilməsi də tövsiyə edilib.

Həmçinin fiziki və hüquqi şəxsləri abidələrə müdaxilədən çəkindirmə amillərinin gücləndirilməsi ilə bağlı Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə müvafiq dəyişiklik edilməsi təklif olunur. Məcəllələrdə abidələrin bərpası və konservasiyası üzrə vahid siyasətin yeridilməsi məqsədilə qanun pozuntularının abidəyə ziyanvurma dərəcəsinə, belə pozuntuya birinci dəfə və ya təkrar yol verilməsinə uyğun təsnifatlaşdırılması, məsuliyyət müddətinin artırılması və cəza tədbirlərinin sərtləşdirilməsi təklif edilir.

# "Şuşa mədəniyyətinin inciləri"

## Layihənin növbəti təqdimatı Şuşa xalçalarına həsr olunub




Mədəniyyət Nazirliyinin "Şuşa İli" münasibətilə həyata keçirdiyi "Şuşa mədəniyyətinin inciləri" layihəsi qədim şəhərimizin mədəni mirasına həsr olunan müxtəlif təqdimatlarla davam edir. Layihənin növbəti təqdimatı "Qarabağ xalçaçılıq məktəbi – Şuşa" bölməsini əhatə edir.

Qədim zamanlardan Azərbaycanın əlverişli iqlim şəraiti burada xalçaçılığın inkişafına təkan verib. Arxeoloji tapıntılar və tarixi yazılı abidələr göstərir ki, Azərbaycan ərazisində eramızdan əvvəl II minillikdə insanlar xalça və xalça məmulatı toxuyaraq öz zərifliyi, gözəlliyi ilə seçilən müxtəlif əşyalar hazırlayıblar.

Azərbaycan xalçaları arasında Qarabağ xalçaları xüsusi yer tutur. Bu xalçalar öz mükəmməl toxunuşu, iri ölçüləri, rəngarəng çalarları ilə həmişə seçilib. Rəng palitrası isə Qarabağın təbii coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlərindən gələn şux (qırmızı, sarı), parlaq və kontrast rənglərdən ibarətdir.

Qarabağ xalçaçılıq məktəbində Şuşa və Cəbrayıl xalça qrupları xüsusilə seçilib. Şuşa qrupuna aid "Malıbəyli", "Ləmpə", "Bağçada güllər", "Bulud", "Saxsıda güllər" və "Nəlbəki gül" xalçaları hündür xovu, əlvan, şux koloriti, çox nazik, incə toxunuşu ilə fərqlənir.

Bir qayda olaraq bu ərazilərdə xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunub. Buna nümunə kimi üç-beş hissədən ibarət dəst xalı-gəbələri misal çəkmək olar. Bu dəstlərin toxunmasında, əsasən, "Ləmpə", "Qoca", "Balıq", "Buynuz", "Açma-yumma", "Bulud" kimi geniş yayılmış çeşnilərdən istifadə edilib.

"Bulud", "Bağçada güllər" və "Saxsıda güllər" adlı məşhur Şuşa xalçalarının toxunmasına Azərbaycan-Rusiya arasında mədəni-iqtisadi əlaqələrin yaranmasından sonra başlanılıb. XIX əsrin ikinci yarısından etibarən Rusiyadan Azərbaycana müxtəlif çeşidli mallar gətirilirdi. Şuşa sənətkarları həmin məmulatların üzərindəki təsvirlərdən ilham alaraq bu cür xalçalar toxuyurdular.

# "Ozan" toplusunun növbəti nömrəsində...




Azərbaycan Aşıqlar Birliyinin (AAB) illik nəşri olan "Ozan" elm və sənət toplusunun beşinci buraxılışı (2021-ci il) işıq üzü görüb.

Nəşr AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 60 illik yubileyinə təbrik məktubu ilə açılır. Topluda, həmçinin Azərbaycan Respublikası Prezidentinin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" 18 fevral 2021-ci il və "Aşıq Ələsgərin abidəsinin ucaldılması haqqında" 30 noyabr 2021-ci il tarixli sərəncamları, aşıq sənətinin inkişafına, ustad aşıqların yubileylərinin qeyd olunmasına göstərdiyi qayğı və diqqətə görə ölkə başçısına AAB adından təşəkkür məktubu da dərc olunub. 2021-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına (İbad Allahverdiyev, Bəhmən Kazımov) və digər mükafatlara layiq görülmüş sənətkarlara təbriklər də nəşrdə yer alıb.

AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, toplunun bu nömrəsində 2021-ci ildə 200 illik yubileyi təntənə ilə qeyd olunmuş Aşıq Ələsgər haqqında elmi-publisistik məqalələr dərc olunub. Bu nömrədə oxucular eləcə də M.Qasımlı və M.Allahmanlının "Aşıq məclisinin açılışında və qapanışında oxunan poetik mətnlər" və M.Qasımlının ustad aşıq Hüseyn Şəmkirliyə həsr etdiyi "Qüdrətli saz-söz ustadı" adlı məqalələri ilə də tanış ola bilərlər.

Topluda ilk dəfə olaraq dastanlarımıza da yer ayrılıb – "Aşıq Hüseynlə Reyhan xanım dastanı" və Nizami Gəncəvinin eyniadlı məsnəvisi əsasında hazırlanaraq 2021-ci ilin dekabr ayında Bakıda – Heydər Əliyev Sarayında tamaşaçılara təqdim olunan "Leyli və Məcnun" dastan-tamaşası diqqətə çatdırılır.

Topluda 2021-ci ildə Azərbaycan Aşıqlar Birliyinin həyata keçirdiyi tədbirlər və nəşrləri haqqında xəbər xronikası da verilib.

Xatırladaq ki, 2017-ci ildən nəşr olunan toplunun baş redaktoru Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, baş redaktorun müavini Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

# Bölgələrdəki mədəniyyət müəssisələrində "Şuşa İli"



Ağdaş Regional Mədəniyyət İdarəsi RMİ Zərdab rayon Həsən bəy Zərdabi Muzeyində keçirilən "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa" adlı tədbirdə muzeyin direktoru Vəfa Bayramova və digər qonaqlar mövzu ətrafında çıxış ediblər.

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Şuşa mədəniyyətimizin beşiyidir" adlı tədbir keçirilib. Tədbirdə Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsinin əhəmiyyətindən danışılıb, Vətən müharibəsində əldə etdiyimiz tarixi Qələbə sayəsində ölkəmizin beynəlxalq arenada söz sahibinə çevrildiyi qeyd olunub.

Bərdə RMİ Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialı olan Aran-2 qəsəbə Mədəniyyət evi "Şuşa abidələr şəhəridir" adlı tədbir təşkil edib.



Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin 2 saylı şəhər klubunda Şuşa şəhərinin əsasının qoyulmasının 270 illiyi və Qarabağ xanı Pənahəli xan barədə məlumat xarakterli toplantı təşkil olunub. Tədbirdə mədəniyyət işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Ağstafa RMİ Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbində "Əziz Şuşa, sən azadsan!" başlıqlı tədbir keçirilib. Məktəbin müəllimləri mövzu ətrafında çıxış edib, şagirdlər şeirlər səsləndirib.

Şəki RMİ Balakən rayon Mədəniyyət Mərkəzində "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır" adlı ədəbi-bədii kompozisiya təşkil edilib. Tədbirdə regional idarənin rəhbərliyi və əməkdaşları, 1-ci və 2-ci Qarabağ müharibəsi əlilləri və şəhid ailələri, Balakən rayonunda fəaliyyət göstərən idarə və təşkilatların nümayəndələri, mədəniyyət işçiləri iştirak ediblər.

# Vətənin qəhrəmanları unudulmur



Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı və idarənin bir qrup əməkdaşı 2016-cı ilin Aprel döyüşləri şəhidi, baş leytenant Əbu Bəkr İsmayılovun Kürdəmir şəhərindəki büstünü ziyarət ediblər. Şəhidin büstü önünə çiçəklər qoyulub, xatirəsini ehtiramla yad olunub.

Ağdaş RMİ Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanasında Aprel döyüşləri şəhidi Nurlan Abdullazadənin doğum günü ilə bağlı "Mən Mübariz olacağam" başlıqlı tədbir keçirilib.

Xaçmaz RMİ Quba rayon MKS-nin Qamqam kənd kitabxana filialının əməkdaşları və oxucuları Vətən müharibəsi şəhidi Elməddin Abdullayevin doğum günü ilə əlaqədar məzarını ziyarət ediblər.

Sumqayıt RMİ Qubadlı rayon nümayəndəliyində Vətən müharibəsinin şəhid polkovnik-leytenantı Faiq Qasımovun doğum günü ilə əlaqədar xatirəsi anılıb. Tədbirdə şəhidin həyat yolunu əks etdirən videoçarx nümayiş etdirilib. Regional idarənin tabeliyindəki Zəngilan şəhər Uşaq musiqi məktəbinin əməkdaşları isə Vətən müharibəsi şəhidi İmamalı Hüseynovun ailəsini ziyarət ediblər. Kollektiv ailənin qayğıları ilə maraqlanıb, onlara maddi və mənəvi dəstək göstəriblər.

Şamaxı rayonunda yerləşən Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidi, Qobustan



şəhər R.Behbudov adına Uşaq incəsənət məktəbinin tar müəllimi olmuş Rauf Əliyevin doğum gününə həsr edilən anım mərasimi keçirilib. Mərasimdə İsmayıllı RMİ-nin rəisi Elçin Nəcəfov, Uşaq incəsənət məktəbinin müəllim kollektivi və şəhidin ailə üzvləri iştirak ediblər.

# Görüş, sərgi, müsabiqə, təqdimat...

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə 14 fevral – Beynəlxalq Kitab Bağışlama Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə kitabxananın fəal oxucularına kitablar hədiyyə edilib.




MKS-nin Mərkəzi Kitabxanasında isə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, ədəbiyyatşünas alim, professor Əzizə Cəfərzadənin oğlu texnika üzrə fəlsəfə doktoru Turan İbrahimovla görüş keçirilib. T.İbrahimov göstərilən diqqət və qayğıya görə kitabxana rəhbərliyinə təşəkkür edib və Əzizə Cəfərzadənin son dövrlər nəşr edilən kitablarını kitabxanaya bağışlayıb.

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Narkomaniya – əsrin bəlası" mövzusunda maarifləndirici tədbir keçirilib. Çıxış edənlər narkomaniya kimi zərərli vərdişlərin yaratdığı fəsadlardan, gənc nəslin sağlam tərbiyəsi yönündə aparılan maarifləndirici işlərdən danışıblar.



Masallı Dövlət Rəsm Qalereyasında Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunan "Dəhşətli gecə" adlı rəsm sərgisi təşkil edilib. Sərgidə rayonun bir neçə ümumtəhsil məktəbi şagirdlərinin əl işləri nümayiş olunub.

Sumqayıt RMİ Sumqayıt şəhər S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbi Fortepiano şöbəsinin şagirdləri Sevinc Atakişiyeva, Məryəm Əliyeva, Ləman Əlizadə və Fidan Balamiyeva Qazaxıstanın Nur-Sultan şəhərində onlayn formatda keçirilən vokal-instrumental müsabiqədə 2-ci dərəcəli diploma layiq görülüblər.

Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində "Gender bərabərliyi" mövzusunda konfrans keçirilib. Tədbirdə Sumqayıt Regional "ASAN Xidmət" Mərkəzinin direktoru Kəmalə Rəhimova və digər natiqlər mövzu ətrafında fikirlərini bölüşüblər.

Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə Sabirabad rayon Mədəniyyət Mərkəzində aktyor, rejissor və videobloger Taleh Yüzbəyovla görüşüb. Görüşdə regional idarənin əhatə etdiyi şəhər və rayonlarda kino sənəti üzrə maarifləndirmə işinin təşkili, kadr hazırlığı istiqamətində fikir mübadiləsi aparılıb. Sonra Taleh Yüzbəyovun çəkdiyi "Zəhər tuluğu" tammetrajlı bədii filmi nümayiş olunub. Ssenari müəllifləri Orxan Mərdan, Taleh Yüzbəyov, Pərviz Həsənov və Cəlil Cavanşir olan film tamaşaçıların marağına səbəb olub.

Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində İkinci Dünya müharibəsində Fransa Milli Müqavimət hərəkatının fəal üzvlərindən əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun (1920-1994) 100 illiyinə həsr olunmuş "O, Xarqo idi" filminin təqdimatı keçirilib. Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasında istehsal olunan ekran əsərində baş rolu aktyor İqbal Əliyev ifa edib. Filmin ssenari müəllifi Şahin Sinaria, rejissoru Tahir Tahiroviç, operatoru Rafiq Əliyev, prodüseri isə Nazim Hüseynovdur.




Xalq şairi Bəxtiyar Vahabzadənin (1925-2009) vəfatının ildönümü (13 fevral) ilə əlaqədar Şəki şəhərində xatirə tədbiri keçirilib. Şəki RMİ-nin rəhbərliyi, mədəniyyət işçiləri, ziyalılar şairin Şəki şəhərinin mərkəzindəki parkda ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar. Şairin şəhərdəki ev-muzeyində "açıq qapı" günü təşkil olunub. Ziyarətçilərə Bəxtiyar Vahabzadənin Azərbaycan ədəbiyyatında xidmətləri barədə məlumat verilib.

Regional idarənin tabeliyindəki Zaqatala rayon MKS-nin Uşaq şöbəsində və kənd kitabxana filiallarında Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə tədbirlər təşkil edilib.

Biləsuvar RMİ Biləsuvar rayon Heydər Əliyev Mərkəzində regional idarənin əhatə etdiyi Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarının mədəniyyət müəssisələrinin rəhbərləri ilə görüş keçirilib.



Gəncə RMİ, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə İctimai İştirakçılıq Məclisi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsi və "Kitab oxu" kitab evinin təşkilatçılığı ilə Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə aksiya keçirilib. Gəncə Dövlət Filarmoniyasının qarşısında təşkil olunan aksiyada şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk və idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İsmayıllı RMİ Ağsu rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağsu nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Ulu öndər və gəncliyimiz" layihəsi çərçivəsində görüş keçirilib. Görüşə rayonun sosial-iqtisadi, ictimai-mədəni həyatında fəal iştirak edən, Vətən müharibəsində döyüş yolu keçən gənclər qatılıb.

Ağstafa RMİ Ağstafa rayon MKS-nin oxuculara xidmət və uşaq şöbələri tərəfindən Beynəlxalq Kitab Bağışlama Günü ilə əlaqədar "Hər kitab bir xəzinədir" adlı kitab sərgisi təşkil edilib.

# "Qərbi Azərbaycanda mədəni irsimiz: dünən və bu gün"

Sumqayıtın Tarixi Muzeyində "Qərbi Azərbaycanda mədəni irsimiz: dünən və bu gün" adlı elmi-praktik konfrans keçirilib.

"Qərbi Azərbaycan İcması" İctimai Birliyi şəhər nümayəndəliyinin təşkil etdiyi tədbirdə Milli Məclisin deputatları Müşfiq Məmmədli və Əziz Ələkbərli, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə muzeydə "Bir elin harayı" ekspozisiyasına baxış keçirilib. Ekspozisiyada Sumqayıt şəhər 39 nömrəli orta məktəbin direktoru Baxşeyiş Ələmşahovun vaxtilə Zəngəzur mahalından, ata-baba yurdundan deportasiya edilərkən çıxara bildiyi məişət əşyaları sərgilənir. Ekspozisiyada müxtəlif əsrlərə aid 60-a qədər qiymətli məişət əşyası yer alıb.



Sonra konfransda çıxışlar dilənilib, fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən sonra Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıtmaq inamı daha da artıb.

Hazırladı: N.MƏMMƏDLİ

# Akademik Musiqili Teatr Tehranda “Fəcr” festivalında çıxış edib



Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Akademik Musiqili Teatrı İranda keçirilən 40-cı “Fəcr” Beynəlxalq Teatr Festivalında iştirak edir. Yaradıcı heyət müxtəlif ölkələrdən teatr kollektivlərinin qatıldığı ənənəvi festivala iki tamaşa aparıb.

Akademik Musiqili Teatr fevralın 11-də Tehran Şəhər teatr salonunda “Bir nəfəs qədər” tamaşasını nümayiş etdirib.

Tamaşadan əvvəl Azərbaycanın İrandakı səfiri Əli Əlizadə çıxış edərək qonaqları və teatrın kollektivini salamlayıb. Qeyd olunub ki, Azərbaycanın sənət adamlarının İrana qastrol səfərinə gəlməsi və “Fəcr” Beynəlxalq Teatr Festivalında çıxış etməsi xalqlarımızın mədəni əlaqələrinə töhfədir. Əli Əlizadə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun torpaqlarımızı erməni işğalından azad etməsindən bəhs edib. Azərbaycan xalqının torpaqların azadlığı uğrunda minlərlə şəhid verdiyini bildirən səfir tamaşanın 44 günlük Vətən müharibəsinə və qəhrəman şəhidlərimizə ithaf olunduğunu vurğulayıb.

Diplomat tamaşanın İranda milli bayram – İslam inqilabının ildönümündə keçirilən ənənəvi “Fəcr” ongünlüyündə nümayiş etdirilməsinin də əlamətdar olduğunu qeyd edib və bayram münasibətilə İran dövlətini və xalqını təbrik edib.

Sonra “Bir nəfəs qədər” tamaşası təqdim olunub. Əsərin süjet xəttində Vətən müharibəsinin könüllü döyüşçülərindən olan Vətən adlı gəncin həyat hekayəsindən bəhs edilir.

Əməkdar artist Nahidə Orucova, aktyorlar Gülnarə Abdullayeva, Gülcahan Salamova, Əmrah Dadaşov, Nəzrin İsmayılzadə, Samir Qulamov, Səmədzadə Xasiyev, Əli Kərimov və Qabil Gözəlovun iştirak etdikləri tamaşa sürəkli alqışlarla qarşılanıb. Tamaşaçılar yaradıcı heyətlə xatirə şəkilləri çəkdirib, avtoqraflar alıblar.

Fevralın 12-də festival çərçivəsində Akademik Musiqili Teatrın daha bir səhnə əsəri – rus yazıçısı Fyodor Dostoyevskinin “Utancaq qız” fantastik povesti əsasında Xalq artisti Cənnət Səlimovanın quruluşunda hazırlanan eyniadlı monotamaşa nümayiş olunub. Tamaşada Əməkdar artist Şövqi Hüseynov (o həmçinin əsəri Azərbaycan dilinə tərcümə edib) çıxış edib.




Şövqi Hüseynovun özünəməxsus ifası izləyicilər tərəfindən rəğbətlə qarşılanıb.

Qeyd edək ki, festivalda nümayiş olunan hər iki tamaşanın bədii rəhbəri Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir.

# ƏSA Teatrının premyerası – “Çıxış yoxdur!”

Azərbaycanın ilk inklüziv teatrı olan ƏSA Teatrının yeni tamaşasının – “Çıxış yoxdur!” fəlsəfi dramının premyerası keçirilib.

Dövlət Akademik Rus Dram Teatrının səhnəsində nümayiş olunan tamaşa məşhur fransız yazıçı, ədəbiyyat üzrə Nobel mükafatçısı Jan-Pol Sartrın “Bağlı qapılar arxasında” əsəri (1944) əsasında hazırlanıb.



Tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadə, prodüseri Nicat Qulam, işıq üzrə rəssamı Binyamin Sailovdur. Səhnə əsərində Elşən Əsgərov, Səmayə Ağayarova, Lalə Süleymanova, İmran Lalayev, Elsevər Rəhimov, Aysel Feziyeva və Gülçin Qasımova çıxış edirlər.

Teatrdan verilən məlumata görə, tamaşanı mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin əməkdaşları da izləyiblər.

Nümayişdən sonra yaradıcı heyətlə görüşən Elnur Əliyev tamaşanın xarici festivallarda ölkəmizi təmsil edə biləcəyini deyib, teatrın kollektivinə uğurlar arzulayıb.

Qeyd edək ki, ƏSA Teatrının öz səhnəsi olmadığından kollektiv tamaşalarını ayda bir dəfə Akademik Rus Dram Teatrının səhnəsində təqdim edir.

# İncəsənət əsərlərinin onlayn auksionu

## Alıcılarla satıcılar öz aralarında razılığa gələcəklər

Xəbər verdiyimiz kimi, yanvarın 10-dan “Auction Baku” MMC-nin təşkilatçılığı, Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə incəsənət əsərlərinin onlayn auksionu keçirilirdi. 15 gün müddətində nəzərdə tutulan auksion sonradan 1 ayadək uzadıldı.

Ölkəmizdə mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini yaratmaq, alıcı və satıcılar arasında əlaqə qurmaq, art biznes sahəsində rəqabət qabiliyyətliliyi gücləndirmək, ölkənin iqtisadi inkişafında yaradıcı sənayenin rolunu artırmaq məqsədilə həyata keçirilən onlayn hərracda ümumilikdə 13 tablo – Mikayıl Abdullayevin “Mənzərə”, Mahmud Rüstəmovun “Glamours genetics – 2”, Rəşad Cabbarovun “Pişiklə söhbət”, Fərman Qulamovun “Dəniz yaxınlığında”, Bəhruz Kuulun “Cənnətdən bir parça”, Səmədağa Cəfərovun “Ağ çiçəklər”, Namiq Məmmədovun “Dua”, Həmzə Abdullayevin “Liman”, Bəxtiyar Yusufovun “Acı bibər”, Əliabbas Kərimovun “Gəmi”, Mirazər Abdullayevin “Sirr”, İlham Mirzəyevin “Ana məhəbbəti” və Vüqar Əlinin “Nəğmə” əsərləri təqdim edilmişdi.

Dövlət Rəsm Qalereyasından bildirildi ki, hərraclar açıq və qapalı formatlarda reallaşır. Bir ay müddətində davam edən budəfəki hərrac alıcıların istəyi ilə qapalı və anonim keçirilib. Alıcılar bilavasitə satıcılarla əlaqələndirilib. Bundan sonrakı mərhələdə isə artıq alıcıların hansı əsəri almaları tərəflər arasında danışıq və razılaşmadan asılı olacaq...

**Lalə**

# Musiqi məktəbi şagirdinin uğuru

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi G.Şaroyev adına 35 nömrəli onbirillik Musiqi məktəbinin şagirdi Ləman Şərifzadə Moskvada keçirilən Avrasiya incəsənət müsabiqəsində uğurla çıxış edib.

Baş idarədən bildirilib ki, F.Mendelsonun fortepiano üçün “Sözsüz mahnı” (№1) əsərini ifa edən Ləman Şərifzadə “instrumental musiqi” nominasiyası üzrə 12-13 yaş kateqoriyasında “Avrasiya incəsənət mükafatı”nın I dərəcəli diplomuna layiq görülüb.

Münsiflər heyəti ifaçının müəllimi Kəmalə Ələsgərovanı göstərdiyi yüksək peşəkarlığa və şagirdin musiqi-estetik inkişafına verdiyi böyük töhfəyə görə təşəkkürnamə ilə təltif edib.

# BXA-nın rəqqasələri beynəlxalq konsert-müsabiqədən laureat adı ilə qayıdıblar

Bakı Xoreoqrafiya Akademiyasının (BXA) müəllimi, Əməkdar mədəniyyət işçisi Lyudmila Qutlyanskayanın müşayiəti ilə BXA-nın tam orta məktəbinin IX sinif şagirdləri Liana Bernadina və Leyla Dəmirova 11-14 fevral tarixində Sankt-Peterburq şəhərində məşhur rus balerinası Anna Pavlovanın 140 illiyinə həsr olunmuş “Klassik və müasir rəqs ifaçılarının beynəlxalq konsert-müsabiqəsi”ndə iştirak ediblər.



Peterhof Yay Sarayında keçirilən müsabiqədə Liana Bernadina “Armida pavilyonu” və “Əbəs yerə ehtiyatlılıq”, Leyla Dəmirova isə “Yatmış gözəl” baletindən Yasəmən pərisi, “Paxita” baletindən variasiyaları ifa ediblər.

Leyla Dəmirova möhtəşəm çıxışına görə 107 ifaçı arasında I dərəcəli laureat, Liana Bernadina isə II dərəcəli laureat adına layiq görülüb.

Müsabiqə Anna Pavlovanın yubileyinə həsr edildiyindən mükafatlandırma balerinanın ev-muzeyində keçirilib.

Qeyd edək ki, müsabiqədə 107 ifaçı ümumilikdə 215 rəqs ifası ilə çıxış edib. Müsabiqənin missiyası klassik baletin ən yaxşı ənənələrini qoruyub saxlamaq, tələbələrin qabiliyyətlərini və ifaçılıq bacarıqlarını inkişaf etdirmək, onların yaradıcılıq potensialının reallaşdırılması üçün əlverişli şərait yaratmaq, istedadlı rəqqasları üzə çıxarmaq və dəstəkləmək, sənət əlaqələri yaratmaqdır.

# Zorla şorgöz olmaq?



Təxminən üçillik fasilədən sonra oynanılacaq tamaşanın sorağı ilə üz tutduq Akademik Milli Dram Teatrına. Əslində, hələ 2013-cü ildə premyerası olmuş səhnə işinə (“Zorən şorgöz”) iki dəfə baxmışdım. Yenidən izləmək səbəbim isə həm də bu dinamik komediyanı pandemiyanın yaratdığı uzun fasilədən sonra yaradıcı heyətin necə təqdim edəcəyini görmək istəyi ilə bağlı idi. Üstəlik, əsas obrazlardan birinin oyunçusu yeni nəsil aktrisa ilə əvəzlənmişdi.

Fevralın 13-də baş tutan bu nümayiş əvvəlkilərindən müəyyən məqamlarda fərqlənməyi bacardı. Amma üzdəniraq pandemiyanın oyunçularda buraxdığı izlər bu qədər oynaq templi bir əsərə tempdə münasibəti istər-istəməz laxladırdı. Bir şeyi unutmaq olmaz ki, əlahəzrət səhnə daim gözəllik və plastika istəyir. Xüsusən gənc və orta nəsildən. Belə olan təqdirdə sağlamlıq imkanlarını nəzərə alan hər bir səhnə adamı daim xarici görünüşünü nəzarətdə saxlamalı və rejissorun rol bölgüsünə “məni də” deməzdən əvvəl ayna önünə keçməlidir. Yoxsa, vəziyyət ürəkaçan olmur.

Bu yerdə, teatr zümrəsinin dili ilə desək, dublyor məsələsi də qabarıq şəkildə öz aktuallığını büruzə verir. Odur ki, tamaşanın təhlilinə keçməzdən əvvəl hörmətli rejissorlara xitabən soruşmaq istərdik: məgər teatrların aktyor truppaları o qədər kasaddır ki, dublyorsuz, bir növ əvəzolunmaz heyətlə tamaşa qurursunuz? Yaxud, hansısa aktyorun həmkarına ünvanlanan “O kimdir ki, mən onun dublyoru olum?” hikkəsindən o yana keçə bilmirsiniz? Səbəbi siz rejissorlara bəlli olan problemin nəticəsini səhnədən görən tamaşaçıya deyə bilmədikcə hələ çox “Bu uğursuzluğun tək səbəbkarı rejissordur” qınağını eşidəcəksiniz, bizdən demək. O ki qaldı tək heyətlə (əsas etibarilə) qurulan “Zorən şorgöz” tamaşasına, dediyim problem burada da öz diktəsini etdi. Səhnədəkilərdən birinin yüngül (bəlkə də ağır) zədəsi bütün oyuna münasibətinə (münasibətimizə) təsir etdi...

Gələk “Zorəz şorgöz” komediyasının, daha doğrusu, tragikomediyasının (vəziyyətə görə) səhnə həllinə.

Deyim ki, ingilis dramaturqu, aktyor, rejissor, bütünlükdə teatr adamı – bu il 90 yaşı tamam olan Rey Kuninin yaradıcılığı haqqında az-çox məlumatlıyam. Onun maraqlı, novator və ümumilikdə səhnədən tamaşaçı ilə oyuna hesablanmış formulundan xoşum gəlir. Təsadüfi deyil ki, bu gün dünyanın ən müxtəlif səhnələrində onun əsərləri fərqli quruluşlarda tamaşaçı ilə görüşür. Yeri gəlmişkən, Rey Kuninin bu pyesi (orijinalda “Qarışıqlıq” adlanır) 2018-ci ildə Akademik Rus Dram Teatrında da “Kişi, qadın, pəncərə... məşuq” adı ilə tamaşaya (rejissor – Xalq artisti İranə Tağızadə) qoyulub.

Akademik Milli Dram Teatrında “Zorən şorgöz” adı ilə səhnəyə gələn tamaşaya Əməkdar artist Nicat Kazımov quruluş verib. Özünün həm də baş rolu (Riçard Uilli) oynadığı ikihissəli komediya anlıq vəziyyətin vizual traktovkası, belə demək mümkünsə, bir məkanda müxtəlif vəziyyətlərin fərqli təqdimatı baxımından maraqlıdır. Digər rolları Xalq artisti Kazım Abdullayev (Mehmanxana müdiri), Əməkdar artistlər Aslan Şirin (Corc Piqden), Rəşad Bəxtiyarov (Ofisiant), Mətləb Abdullayev (Ronni), Şəlalə Şahvələdqızı (Pamela), aktyorlar İlahə Həsənova (Ceyn Uorzinqton), Şəhla Əliqızı (Qledis), Vüsal Mustafayev (Detektiv) və Dilarə Nəzərova (Mariya) ifa edirdilər. Tamaşanın quruluşçu rəssamı Elşən Sərxanoğlu, musiqi tərtibatçısı Həmid Kazımzadədir.

Birmənalı olaraq situasiya komediyası (“sitkom”) hesab etdiyimiz bu səhnə işində əvvəldən sonadək dinamizm, ekssentriklik, yumor və oyun içində oyun ön plandadır. Hadisələr London mehmanxanalarının birində cərəyan edir. Növbəti eşqbazlıq macərasını icra etmək istəyən iqtidar partiyasının deputatı, üstəlik baş nazirin sadiq köməkçisi Riçard Uilli və müxalifət liderinin gənc katibəsi Ceyn Uorzinqton gizlincə burada görüşürlər. Guya debata hazırlaşan deputat və məşuqəsi yasaq eşqbazlığın qurbanı olurlar. Belə ki, nömrələrindəki pəncərədən yarımasılı qalan kişi “meyit”i onların kefinə əməllibaşlı soğan doğrayır.

Ceynin əri Ronninin arvadını güdmək üçün tutduğu detektivin “cansız bədəni“ deputatın həm eşqinin, həm də karyerasının üstünü qara bulud kimi alır. Bir anda bütün ölkədə rüsvay olacağını xəyal edən deputat tez tədbir tökməyə başlayır.

Nicat Kazımov rejissor və baş qəhrəman kimi oyununun yükünü layiqincə çəkdi. Arada bunu tərəf-müqabillərinin də əvəzində etdi. Bir-iki vizual vəziyyəti ifadə ifratlarını nəzərə almasaq (mətn və mizan onsuz da o mətləbləri aydın göstərirdi deyə, məncə, izafi izahlı-təsvirlərə gərək yoxdur), əla təsir bağışladı. Bura müəyyən texniki, ani əngəllərin yerində həllini də əlavə etsək, alqışı haqq edir.



Təbii ki, bu işdə yenə də fağır, eşqdən başqa hər işə qol qoyan köməkçisi Corc Piqdeni qurban kimi seçir. Bəli, məhz qurban. Çünki bütün hadisələr də məhz yaşıl kostyumlu utancaq kişinin gəlişi ilə başlayır.

Ömrü boyu anasının əsarətində olan və evlərindən başqa heç yerdə gecələməyən yaşlanmış subay Corc birdən-birə bir neçə qadının “ehtirasının ağuşuna atılır”. Nəticədə “zorən şorgöz”ə çevrilir və beləcə istəmədən şəhvətin (qadınların) alətinə çevrilir.

Keçək “zorən şorgöz”lüklə “məşğul” olanların performanslarına. Düzünü deyim də, bu performans sözündən zəhləm gedir. Amma teatr mühitində “trend”ə çevrilməsindən sonra mənim də dilimə yatıb.

Aslan Şirinin “zorən şorğözlüyü”nə gəlincə, ümumən aktyor kimi oyuna köklənməsinə sadəcə valeh oldum. Onu bir aktyor kimi bu oyunda daha çox kəşf etdim. Nəzərə alsaq ki, ikihissəli tamaşanın əsas oyun yükü həm də onun çiyinlərində idi. Hərəkətdən səs tembrinədək fraqmentar dəyişikliklər və yenidən əsas vəziyyətə qayıdış mükəmməl alınmışdı. O, komediyanın içində qəhrəmanının dramatizmini, müəllifin iynə ucu boyda yer qoyduğu saflığını geniş planda tamaşaçıya çatdırmağın da nümunəsini göstərdi.

Mehmanxana müdirini oynayan Kazım Abdullayev klassik formasında idi. Detektiv Vüsal Mustafayev “ölü” olsa da, oyunu dipdiri yaddaşa köçdü. Ümumən aktyor kimi onun boyuna biçilmiş temp və yormayan dinamikası budəfəki oyununa da hakim idi.

Rəşad Bəxtiyarovun “Fürsətçil ofisiant”ı, Dilarə Nəzərovanın tamaşaçı ilə yalnız “çarpayı” sözü ilə dialoq quran təmizlikçi Mariyası xüsusən son səhnələrdə, ümumilikdə tamaşanın əsas gedişində yer aldıqlarını göstərdilər.

Təəssüf ki, bu sözləri Foster bacı-Qledis və Pamela obrazları haqqında deyə bilməyəcəm. Çünki hər oyunçu bu rollarını uzun müddət oynamadıqlarının haqq-hesabını “çürütdülər”. Nəticədə biz tamaşaçı olaraq bir kişi üçün gizli-aşkar mübarizə aparan iki qadının şəhvətində ilişib qaldıq.

Bu sözlər xəyanət şübhəsi ilə yanıb-yaxılan (əslində sönük) Ronniyə də aiddir. Cüssəli aktyor səhnədə var-gəl etdikcə, hədə və hökmlər verdikcə qulağımı məhəllə uşaqlarının ləhcəsi cırmaqlayırdı.

Gələk bu heyətdə yeni oyunçu İlahə Həsənovanın təqdimatında məşuqəyə – Ceyninə. Aktrisanın gəncliyi, fiziki aktivliyi, plastikası və öz oyununa hakimliyi yaxşı təsir bağışladı. Ən əsası tərəf-müqabillərinin onu oyunları ilə üstələmələrinə imkan vermədi.

Üstələmək demişkən, son vaxtlar, demək olar ki, bütün teatrlardakı köhnə-yeni tamaşalarda təəssüf və bir az da təəccüblə müşayiət etdiyimiz bir hal var: tərəf-müqabilləri ya bir-birinin replikasını tamamlamasına imkan vermir, ya da ani unudulmuş frazanı almayınca dillənmirlər. Nəticədə ya temp adı ilə oyun qırılır, ya da əcaib pauza yaranır. Tamaşaçı da ya rejissorun qarasınca deyinir, ya da pandemiyanı yaradanı qarğayıb köks ötürür...

**Həmidə Nizamiqızı**

**P.S.** *Tamaşaların iki heyətlə qurulması və aktyorların səhnədə fiziki hazırlığı mövzularına qayıdacağıq...*

№13 (1886)
16 fevral 2022
www.medeniyyet.az

# "Şəhid olacağam, ad çıxaracağam..."

44 günlük Vətən müharibəsində bizlərə Qələbə sevinci bəxş edən qəhrəmanlarımızı tanıtmaqda davam edirik. Bu yazıda şəhid əsgər Sabir Salahov haqqında söz açacağıq.




Sabir Hikmət oğlu Salahov 1999-cu il avqustun 15-də Salyan rayonunda anadan olub. İlk təhsilini Salyan şəhər 3 saylı tam orta məktəbində alıb. Sabir Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdində Bakı Neft-Energetika Kollecinə daxil olur. Lakin təhsilini dayandırıb 2017-ci ildə hərbi xidmətə yollanır. 2019-cu ildə həqiqi hərbi xidmətini başa vursa da, şanlı formanı əynində yenidən daşımaq qərarı verir. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Füzuli rayonunda xidmətini davam etdirir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərində Sabir Salahov da döyüşlərdə iştirak edir. Füzuli rayonu uğrunda gedən şiddətli döyüşlərin birində snayper gülləsinə tuş gəlir. Döyüş yoldaşları Sabiri başqa yaralılarla birgə təxliyə edirlər. Bir neçə saat sonra o, yaralı olsa da, yenidən döyüşə atılır.

Şəhidin anası Sevgül Salahova qeyd edir ki, Vətən müharibəsi başlayandan bir gün sonra – sentyabrın 28-də Salyanda Sabirin şəhid olması ilə bağlı xəbər yayılır. Amma tezliklə bu xəbərin doğru olmadığı üzə çıxır. Məlum olur ki, Sabir döyüşlərdən birində öz formasını şəhid olmuş səngər yoldaşı Səyyadın üstünə örtərək döyüşlərə davam edir. Döyüş meydanından şəhidlərin nəşini götürərkən Səyyadın üstünə örtülən formada Sabirin ad-soyadını oxuyanlar elə biliblər ki, Sabir şəhid olub. Sabir Salahov oktyabrın 3-də düşmən tərəfindən açılan minomyot atəşi nəticəsində şəhadətə yüksəlir.

Sevgül xanım bildirir ki, Sabir uşaqlıqdan sakit təbiətli olub: "Ailədə iki qardaş olublar. Sabir ağıllı olmaqla yanaşı, həm də çox zəhmətkeş idi. Kiçik yaşlarından işləyib atasına kömək etmək istəyirdi... Müharibə zamanı Sabirlə yanaşı, qardaşı Vüsal da həqiqi hərbi xidmətdə olub: "Vüsal Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdi. Bir il idi ki, bir-birlərini görmürdülər. Vüsal hər gün evə zəng vuraraq Sabiri soruşurdu. Rabitəçi idi, ona görə də qardaşının şəhid olmağını bizdən qabaq öyrənmişdi. Sabirlə axırıncı danışığımızın birində "şəhid olacağam, ad çıxaracağam" dedi və sözünün üstündə durdu. Mən Sabirlə fəxr edirəm. O, əvvəllər təkcə mənim oğlum idisə, indi hamının oğludur. Mən də təkcə Sabirin yox, bütün şəhid oğullarının anasıyam".

Sabir Salahov oktyabrın 6-da Salyan rayon Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Yazıçı-dramaturq Əfqan vəfat edib

Tanınmış yazıçı-dramaturq, publisist, Əməkdar incəsənət xadimi Əfqan (Əfqan Əsgərov) fevralın 13-də, ömrünün 93-cü ilində vəfat edib.



Əfqan Hacıağa oğlu Əsgərov 23 sentyabr 1929-cu ildə Salyan rayonunun Qarabağlı kəndində anadan olub. 1953-cü ildə Bakı Dövlət Universitetini jurnalistika ixtisası üzrə bitirəndən sonra "Azərbaycan gəncləri" qəzetində fəaliyyətə başlayıb. Gənc yazarın ilk hekayələri də o illərdə nəşr edilib.

Sonra Moskvada Ali Ssenaristlər Kurslarını bitirib, "Azərbaycanfilm" Kinostudiyasında redaktor işləyib. Fəaliyyətini "Kommunist" qəzetində (indiki "Xalq qəzeti") davam etdirən yazıçı-jurnalist uzun illər bu redaksiyada mədəniyyət şöbəsinə rəhbərlik edib. 1989-cu ildən "Sovet kəndi", 1991-1992-ci illərdə "Həyat" qəzetinin baş redaktoru olub.

Əfqan Əsgərov bu illər ərzində istedadlı yazıçı və dramaturq kimi tanınıb. "Gülyanaq", "Katib", "Həsrət də bir vüsaldır", "Qartal əfsanəsi" romanları, "Dədə Bəhmən" trilogiyası, "Qozbel", "Məhəbbət ətirli qərənfilim", "Dünya gözəlliyindir", "O, daş deyildir" və başqa povestləri, çoxsaylı hekayələri geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanıb. "Sarı əlcək", "O mənim oğlumdur", "Qız atası", "Gülməyən adam", "Dağ seli", "Tamah dişi" pyesləri teatrlarda tamaşaya qoyulub. Ədibin son böyük əsəri – "Şahlar şahı" romanı 90 illik yubileyi ərəfəsində (2019) çapdan çıxmışdı.

Allah rəhmət eləsin.

# "Şuşa İli"ndə Bülbülcan yad olundu

## BMM-in "Dəyirmi masa" layihəsi davam edir

Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Dəyirmi masa" layihəsinin "Şuşa İli"ndə ilk tədbiri şuşalı məşhur xanəndə, Qarabağ muğam məktəbinin görkəmli nümayəndəsi Bülbülcanın (Əbdülbaqi Zülalov; 1841-1927) 180 illik yubileyinə həsr edilib.



Fevralın 11-də yeni formatda – elmi-nəzəri və musiqili layihə şəklində keçirilən tədbirdə xanəndənin həyat və yaradıcılığından, muğam sənətinə verdiyi töhfələrdən söz açıldı. Layihənin ideya müəllifi BMM-in direktoru, Xalq artisti Murad Hüseynovdur.

Tədbiri filologiya üzrə fəlsəfə doktoru, Bülbülcan irsinin araşdırıcısı Gülhüseyn Kazımlı açaraq BMM-in layihəsi haqqında məlumat verdi, xanəndənin həyat və yaradıcılığından bəhs etdi.

Əməkdar incəsənət xadimi, xanəndə Aqil Məlikov çıxış edərək Bülbülcanın qardaşları Əli və Qəmbər Zülalovlar haqqında danışdı.

Əməkdar artist, tarzən Valeh Rəhimov ötən əsrlərdən bu günə kimi Azərbaycan muğamının keçdiyi yola nəzər salaraq Bülbülcanı bu yolun ən görkəmli xanəndələrindən biri kimi xarakterizə etdi.

Filologiya elmləri doktoru, professor Vilayət Quliyev XIX əsrin II yarısında Şuşanın ədəbi və mədəni mühiti haqqında ətraflı söz açdı.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov dahi bəstəkarın Bülbülcanla sənət əlaqələri haqqında danışdı.

Yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənli xanəndənin yaradıcılığı ilə bağlı düşüncələrini bölüşdü.

Bülbülcanın nəticəsi Tərlan Zülalov və xanəndənin qardaşı, opera müğənnisi Əli Zülalovun nəvəsi Anar Hacızadə tədbirin təşkilinə görə BMM rəhbərliyinə təşəkkür etdilər.

Layihənin musiqi hissəsi – BMM solistlərinin ifaları foyedə tədbiri izləyən tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Əməkdar artist İlkin Əhmədov, xanəndələr Hüseyn Məlikov, Vəfa Vəzirova, Nisbət Sədrayeva və Rövşən Bəşirovun ifasında xalq mahnıları və muğamlar səsləndirildi. Xanəndələri Rövşən Qurbanov (tar), Ceyhun Muradov (kamança), Əməkdar artist Təranə Əliyeva (qanun), Amil Mustafayev (nağara) və balabanda Rafael Əsgərov müşayiət edirdi.

Qeyd edək ki, BMM-in tədqiqat işləri "Unudulmayanlar" və "Dəyirmi masa" layihələri çərçivəsində həyata keçirilir. "Dəyirmi masa"nın mart ayı buraxılışı Cabbar Qaryağdıoğluna həsr olunacaq.

**Lalə**

# "Gələcək öz əlimizdədir"

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı ilə fevralın 11-də paytaxtdakı G.Şaroyev adına 35 saylı onbirillik Musiqi məktəbində narkomaniyaya qarşı mübarizədə maarifləndirmə fəaliyyəti ilə bağlı "Gələcək öz əlimizdədir!" mövzusunda tədbir keçirilib.




Mərkəzin əməkdaşları və regional mədəniyyət müəssisələri işçilərinin onlayn iştirakı ilə keçirilən tədbirdə Gənclər Təşkilatları Milli Şurasının baş katibi Ramin Həbibzadə, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı Filialı Tələbə-gənclər təşkilatının sədri Aydan Höccətova, gənclərlə iş üzrə ekspert və təlimçi Məryəm Məcidova, DİN-nin Bakı Şəhər Baş Narkotiklərlə Mübarizə İdarəsinin xüsusi mühüm işlər üzrə baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı Seymur Quliyev, "Sağlam yaşa" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin icraçı direktoru Tələt Qəribov, QİÇS mərkəzinin əməkdaşı, həkim-infeksionist Günəş Cəfərova, həkim-narkoloq Rövşən Kərimli, psixoloq Aynur Mahmudova, kinorejissor Mehdi Yaqubov, blogerlər Ağa Mehdiyev, Nail Kəmərli və başqaları çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, son vaxtlar gənclərin zərərli vərdişlərə meylinin artması olduqca narahatlıq doğurur. Bu problemdən çıxış yollarından biri gənclər arasında sağlam həyat tərzinin təbliğ edilməsi, onların asudə vaxtlarının faydalı keçirilməsi, kütləvi mədəniyyət, təhsil və idman tədbirlərinə cəlb edilməsidir.

Mövzu ətrafında müzakirə və fikir mübadiləsi aparılıb, tematik videoçarxlar nümayiş olunub. Tədbirin bədii hissəsində "Mavi röya – qara yuxular" adlı tamaşadan səhnə nümayiş olunub. Tamaşanın ssenari müəllifi və rejissoru MEMİM-in "Bölgə" teatr truppasının bədii rəhbəri Hüseyn Məmmədovdur.

# Mədəniyyət ocaqlarının xatirə tədbirləri

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasında "Şuşa həqiqətləri" adlı tədbir keçirilib.




MKS-nin direktoru Lətifə Məmmədova, kitabxananın əməkdaşlarından İradə Hüseynova, Yeganə Qafarova, Sevil Namazova və Lalə Səlimova Şuşa şəhərinin tarixindən, Azərbaycanın mədəni həyatının mühüm mərkəzlərindən biri olmasından söhbət açıblar.

Vurğulanıb ki, 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Şuşada xalqımızın tarixi-mədəni irsi dağıdılıb. 8 noyabr 2020-ci il Şuşanın tarixində şanlı gün kimi yazılıb, qədim şəhərimiz 28 illik işğaldan sonra müzəffər Azərbaycan Ordusu tərəfindən azad edilib. 2021-ci ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı elan olunub. 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən təməli qoyulan şəhər bu il 270 yaşını təntənə ilə qeyd edəcək.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "8 Mart" adına Mədəniyyət evində "Şuşa İli" ilə bağlı dəyirmi masa təşkil olunub.

Baş idarədən bildirilib ki, tədbirdə "Şuşa İli"nə həsr olunmuş videoçarx təqdim edilib.

Sonra Mədəniyyət evinin metodisti Zəhra Fərzəliyevanın "Şuşa İli" haqqında məruzəsi dinlənilib.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xətai rayon MKS-nin Mərkəzi Kitabxanası Vətən müharibəsi şəhidi, tankçı Murad Nağıyev haqqında videomaterial hazırlayıb. Videomaterialda şəhidini şərəfli ömür yolu haqqında məlumat verilib.

Murad Nağıyev 1997-ci il fevralın 9-da Qazax rayonunda anadan olub. Uşaq ikən ailəsi Bakı şəhərinə köçüb. Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 271 nömrəli tam orta məktəbdə təhsil alıb. 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Sonra hərbi təhsilini Türkiyədə davam etdirib. 2016-cı ildə Azərbaycana qayıdıb. 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən məzun olub. N saylı hərbi hissədə leytenant hərbi rütbəsi ilə tank taborunda tağım komandiri olaraq xidmət edib.

Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Hadrut istiqamətlərində döyüşlərdə iştirak edən Murad Nağıyev oktyabrın 11-də Cəbrayıl rayonu ərazisində şəhid olub. Bakıda, II Fəxri xiyabanda dəfn edilib.

# Romantik və realist xarakterlər ustası

Ötən əsrin birinci yarısında sənətə gələn, milli səhnəmizin inkişafına töhfələr verən sənətkarlardan biri Xalq artisti Rəmziyyə Veysəlova olub. Görkəmli aktrisa 62 illik səhnə fəaliyyəti dövründə yerli və dünya klassiklərinin əsərlərində maraqlı və bitkin obrazlar qalereyası yaradıb.

Əslən acar olan Rəmziyyə Osman qızı Veysəlova 11 fevral 1914-cü ildə Gürcüstanda dünyaya göz açıb. Gürcüstanda sovet hökuməti qurularkən bolşeviklər tərəfindən valideynləri güllələnir, evləri müsadirə olunur. Qohumları isə Qazaxıstana sürgün edilir. Ailəyə yaxın olan Petinov soyadlı şəxs altı yaşlı Rəmziyyəni və qardaşı Neyməti Nəriman Nərimanovun yanına aparır. O, uşaqları Bakıda Bahar Ağalarovanın uşaq evinə verir. Rəmziyyə Bakıda yeni tipli qız məktəbində təhsil alır.

1929-cu ildə sənət müəllimlərinin tövsiyəsi ilə sənədlərini Bakı Teatr Məktəbinin Aktyorluq fakültəsinə verir. Sonra Bakı Türk İşçi Teatrının yardımçı heyətinə qəbul olunur. Əvvəllər kütləvi səhnələrə çıxır, epizodik rollar oynayır. F.Pavlovun "Çin tanrısı"nda Viyen, N.Paqodinin "Balta poeması"nda Qız, V.Kirşonun "Küləklər şəhəri"ndə Qadın, Ə.Hamidin "Hind qızı"nda Stelina, Ə.Fövzinin "Gizli əl" əsərində Əsli, H.Nəzərlinin "Yolların"da Gülbahar obrazları səhnə debütü olur. Duyğulu səsi, aydın diksiyası, səhnə plastikası və iti yaddaşı Rəmziyyə Veysəlovanın sənət uğurunda mühüm rol oynayır.

Bir müddət Şəki teatrında çalışan aktrisanın həyat yoldaşı, Gəncə teatrının baş rəssamı, Əməkdar incəsənət xadimi Bəhram Əfəndiyev (1910-1967) 1932-ci ildə Aşqabad Dövlət Azərbaycan Dram Teatrında (1940-cı ilədək müxtəlif adlarla fəaliyyət göstərib) işləməyə dəvət olunur. Beləliklə, Rəmziyyə Veysəlovanın sənət yolunu burada da davam etdirməsi üçün imkan yaranır. O, üç ilə yaxın Aşqabad səhnəsində C.Cabbarlının "Yaşar"ında Yaqut, "Od gəlini"ndə Solmaz, V.Şekspirin "Otello"sunda Dezdemona, Ş.Saminin "Dəmirçi Gavə"sində Mehriban, Ə.Hamidin "Hind qızı"nda Elampa, A.Niyazovun "Qızıl orden"ində Ceyran və digər rollarda çıxış edir.

1934-1935-ci il teatr mövsümündə ailə Gəncə şəhərinə qayıdır. Hər ikisi burada teatr kollektivinə qəbul olunur. Bu elə bir dövr idi ki, Gəncə səhnəsinin simasına çevrilmiş Barat Şəkinskaya Bakıya getmişdi. Ona görə də Rəmziyyə Veysəlova tezliklə bu teatrın aparıcı aktrisası olur. O, qısa vaxt ərzində çoxsaylı xarakterik obrazlar yaradır. Gəncə Dövlət Dram Teatrında lirik-psixoloji üslubun yaradıcılarından və aparıcı sənətkarlarından biri kimi tanınır. Rejissorların ümidini doğruldan aktrisa fasiləsiz olaraq öz üzərində işləyir və axtarışlar aparır. Fərdi yaradıcılıq keyfiyyətini yüksəltmək üçün fədakarlıq nümayiş etdirir. Gəncə səhnəsində Sitarə, Gülsüm, Nabat, Mariya Timofeyevna və Almaz (C.Cabbarlı, "Nəsrəddin şah", "Od gəlini", "1905-ci ildə", "Almaz"), Gülnar, Xuraman və Tükəzban, Məryəm (S.Vurğun, "Vaqif", "Fərhad və Şirin"), Firuzə xanım, Kamilə, Sənubər (S.Rəhman, "Küləklər", "Toy", "Xoşbəxtlər"), Tükəz (M.F.Axundzadə, "Hacı Qara"), Xumar, Nina və Südabə (H.Cavid, "Şeyx Sənan", "Səyavuş"), Mehri xanım (Ə.Haqverdiyev, "Bəxtsiz cavan") obrazları tamaşaçılar tərəfindən maraqla qarşılanır. Rəmziyyə Veysəlova oynadığı rolları sadəcə ifa etmir, həm də obraza girərək onun xarakterini açmaq və tamaşaçını inandırmaq üçün səsinin bütün çalarlarından sənətkarlıqla istifadə edir.

Yaradıcılığı yüksək qiymətləndirilən sənətkar 1955-ci ildə "Əməkdar artist", 1958-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülür. Aktrisa 1981-ci ildə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə də təltif edilir.

Yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədli Rəmziyyə Veysəlova haqqında xatirələr kitabında yazır: "Mənim yadımdadır ki, uzun illər evimizin divarından Əşrəf Yusifzadə ilə birgə Rəmziyyə xanımın portreti asılmışdı. Onun rəsmi də həyatda olduğu kimi çox gözəl idi. Bu şəkildə onun boynundan Anna Axmatovanın boyunbağısından var idi (Anna Axmatovanın şəkillərində görmüşdüm). Mən heç vaxt Rəmziyyə xanımdan bu boyunbağı ilə bağlı heç nə soruşmurdum. Ancaq ölümündən bir neçə ay qabaq Rəmziyyə xanım məndən xahiş etdi ki, ona kömək edib qonaq otağına aparım. Mən onu yataq otağından qonaq otağına gətirəndə o öz şəklinin qarşısında dayanıb baxdı və üzünü mənə tutub soruşdu:

– Nuşa, sən bilirsən bu boyunbağını mənə kim verib?

– Yox, – dedim.

O, söylədi ki, 1941-ci ildə alman faşistləri Moskvaya yaxınlaşanda hökumət Moskva Bədaye Teatrını Gəncəyə təxliyə etdi və bir müddət Rusiyanın böyük sənətkarları Koçalov, Ranevskaya, Knipper-Çexova və başqaları Gəncədə yaşadılar,



azərbaycanlı həmkarları ilə çiyin-çiyinə işlədilər...".

Həmin dövrdə Gəncə teatrında Lermontovun "İki qardaş" pyesi oynanılır. Rəmziyyə Veysəlova səhnədə elə parlaq oyun nümayiş etdirir ki, zalda həmkarları ilə əyləşən Olqa Knipper-Çexova öz boyunbağısını çıxarıb onun boynundan asır...

Tanınmış səhnə xadimi Rəmziyyə Veysəlova 22 avqust 1993-cü ildə, 79 yaşında Gəncə şəhərində haqq dünyasına qovuşub.

**Savalan Fərəcov**

# Şuşaya həsr olunmuş fundamental biblioqrafiya

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin dəstəyi ilə Milli Kitabxana tərəfindən hazırlanan "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya" kitabı çapdan çıxıb. Şuşa haqqında ilk fundamental biblioqrafiya şəhərin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında dövlət başçısının müvafiq sərəncamına əsasən ərsəyə gəlib.

Şuşanın işğaldan qurtuluşuna həsr olunan biblioqrafiyada qədim şəhərimizin tarixi, mədəniyyəti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı haqqında kitablar, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap edilmiş zəngin materiallar əksini tapıb. Kitabda həmçinin Şuşa haqqında digər xarici dillərdə olan materiallar, eləcə də dünya və milli universitet kitabxanalarında saxlanılan ədəbiyyatlar ayrıca bölmələrlə verilib.

1876-2021-ci illəri əhatə edən biblioqrafiyada materiallar Azərbaycan, rus və ingilis dillərində verilib.




Nəşr Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamı ilə açılır. Ali Baş Komandan İlham Əliyevin 2020-ci ilin 8 noyabr tarixində Şəhidlər xiyabanında Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətinin və 15 iyun 2021-ci ildə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin mətnləri də kitabda yer alıb.

Şuşa şəhərinin tarixi ilə bağlı hadisələrin xronologiyası, həmçinin bədnam ermənilərin müxtəlif dövrlərdə burada həyata keçirdikləri qırğın və talanlar, 1992-2020-ci illəri əhatə edən işğal mərhələsi, azad olunmuş Şuşaya dövlət başçısının müntəzəm səfərləri və s. nəşrdə ardıcıllıqla verilib. Həmçinin görkəmli şəxsiyyətlərin Şuşa haqqında fikirləri də bu qədim şəhərin Azərbaycanın ictimai-mədəni həyatında oynadığı rolu bir daha yada salır. Bundan əlavə, Şuşa bədii ədəbiyyatda, Şuşanın təhsil ocaqları, Şuşa mövzusu mədəniyyət və incəsənətdə, Şuşa kitab və monoqrafiya, dissertasiya və avtoreferatlarda bölmələri üzrə də maraqlı faktlar təqdim olunur.

Biblioqrafiyada Şuşanın dini-tarixi abidələri və tarixi-memarlıq abidələri haqqında siyahı da yer alır. Şuşalı Milli Qəhrəmanlar da nəşrdə bir daha yad edilir. Şuşanın musiqidə tərənnümü, kinoda təsviri ilə bağlı bölmə də incəsənət sahəsində tədqiqatçılar üçün vacib informasiyaları diqqətə çatdırır.

Biblioqrafiyanın sonunda nəşrdən istifadəni asanlaşdırmaq məqsədilə Şuşa haqqında kitabların, məqalələrin adlar göstəricisi və Şuşa barədə yazan müəlliflərin əlifba göstəriciləri də təqdim olunur.

Nəşrin elmi redaktoru professor, Əməkdar mədəniyyət işçisi Kərim Tahirov, redaktoru Elnur Nəciyev, tərtib edəni Xeyransa Abbasovadır.

**Lalə Azəri**

# Unudulmuş xalça məmulatlarını məişətimizə qaytaraq...

## Bu həm də sağlamlığımız üçün gərəklidir



Bəşəriyyət yarandığı dövrdən insan cəmiyyəti müxtəlif formasiyalar yaradaraq, ictimai-siyasi, mədəni inkişafa doğru irəliləmişdir. Bu inkişaf yolunda əcdadlarımız həm də zəngin mədəni miras yaratmışdır.

Xalça sənəti də bu qədim mədəni zənginlik arasında özünəməxsus yerə malikdir. Müasir insanların incəsənətin "dekorativ-tətbiqi sənət" adlandırdığı növünə aid ilk xalça nümunələrinə, əsasən ilk vaxtlarda köçəri həyat tərzi keçirən xalqların mədəniyyətində rast gəlinir. Xalqımız da xalça sənətinin ən qədim nümunələrini toxumuş dünya xalqları sırasındadır. Qədim genezisə sahib olan Azərbaycan xalça sənəti geniş mövzunu əhatə edir. Əsrlər boyu xalça və xalça məmulatları xalqımızın həyatında, məişətində mühüm yer tutmuşdur. Təbii boyaq maddələri əldə etmək üçün ana təbiət yurdumuzdan heç nəyi əsirgəməmişdir. Məhz buna görə də xalça məmulatları zəngin koloriti ilə göz oxşayır.

Müasir dövrümüzdə xalça sənətinin müxtəlif sənətşünaslar tərəfindən illərlə tədqiq olunmasına baxmayaraq, hələ də araşdırılmağa ehtiyac duyulan, diqqətdən kənarda qalan qaranlıq məqamlar, mövzular vardır. Xalça sənətşünaslarının qarşısında duran digər məsələ isə keçmiş zamanlarda geniş istifadə edilən, lakin zamanımızda həyat tərzinin inkişafı ilə əlaqədar unudulan xalça növlərini və xalça məmulatlarını yenidən müasir dövrümüzə uyğunlaşdıraraq geri qaytarmaqdır. Bu işdə sənətşünaslara geyim və interyer dizaynerləri, istehsalat sənayesi kömək etməlidir.

Onu da qeyd etmək lazımdır ki, müasir həyatın yüksək tempinə baxmayaraq, xalça sənəti hələ də müəyyən qədər öz varlığını qoruyub saxlamağı bacarmışdır. Sözsüz ki, sənətin unudulmaması istiqamətində ölkəmizdə mütəmadi olaraq tədbirlər görülür. O cümlədən xüsusi peşə məktəblərində və ixtisasa uyğun ali təhsil müəssisələrində xalça sənəti üzrə gənc kadrlar hazırlanır. "Azərxalça" ASC öz fəaliyyəti ilə Azərbaycanda xalça və xalça məmulatlarının istehsalını, bu sahədə yeni texnologiyaların tətbiqini təmin edir.

Xalçaçılıq ənənəsinin təbliğində Azərbaycan Milli Xalça Muzeyinin də apardığı maarifləndirmə işləri təqdirəlayiqdir. Muzey nəfis xalça və xalça məmulatlarından ibarət daimi ekspozisiyadan başqa, mütəmadi olaraq xalça ustalarının yaradıcılıqlarına həsr etdiyi müxtəlif sərgi və konfranslarla da təbliğat sahəsində uğurlu nailiyyətlər əldə edir. Lakin unudulmaqda olan xalça sənətinə dair bir çox sahələrin yenidən dirçəlməsi üçün əlavə tədbirlərin görülməsinə ehtiyac var. Məsələn, xalçaçılıqda qədimdə istifadə edilən boyaq maddələrinin hazırlanması, unudulmuş xalça çeşidlərinin bərpası, istifadədən çıxarılmış xalça məmulatlarına yeni həyat bəxş edilməsi üçün planlı addımlar atılmalıdır.

Tarixi keçmişə nəzər salsaq, xalçanın insan həyatının əsas sahələrində istifadə edildiyini, bu zərif sənətin əhali üçün nə qədər önəmli olduğunu görmüş olarıq. Lakin, çox təəssüf ki, hazırda xalça sənəti praktik həyatımızda az iştirak etdiyi üçün bir çox məmulatlar dövrümüzdə istifadədən çıxarılmışdır. Uzun illər boyu Azərbaycan məişətində geniş istifadə edilən qaşıqdan və ya çömçədan hazırda əhalinin yaylaq-qışlaq həyat tərzindən uzaqlaşması və evlərinə mətbəx mebelinin daxil olması ilə istifadədən sıxışdırılıb çıxarılmışdır.

Qaşıqdan üz tərəfi zili, arxa tərəfi isə palaz olan – qaşıq, çömçə, oxlov kimi mətbəx ləvazimatlarının yığılması üçün uzunsov torba tipli xalça məmulatıdır. Ölçüsü çox da böyük olmayan qaşıqdan bədii dekorativ baxımdan incə zövq ilə bəzədilirdi. Ətrafları saçaqlı, ağız hissəsində isə torbanı büzmək üçün ip olurdu. Qaşıqdan zamanında çox praktik və əvəzsiz xalça məmulatı olmaqla yanaşı, həm də əcdadlarımızın incə zövqünü, dünyagörüşünü, inanclarını öz kiçikölçülü səthi üzərində naxış dili ilə əks etdirən nəfis sənət məhsulları sırasındadır.

Hazırda məişətdə arxaik xüsusiyyət daşıyan digər xalça məmulatı isə duz saxlamaq üçün istifadə edilən torbadır. Bu torbadan həm duzu saxlamaq, həm də bir yerdən başqa yerə daşımaq üçün istifadə edilirdi. Ağzı dar və uzunsov olan duz torbasının üzəri xüsusi naxışlar ilə bəzədilirdi. Rəngli yun, pambıq və ipək iplərdən zili üsulu ilə toxunurdu. Görünüşünə görə sandığı xatırladan məfrəşə bəzi yerlərdə "fərməş" də deyilir. İçərisinə yorğan-döşək dəsti yığılaraq bir yerdən başqa yerə daşınırdı. Həmçinin gəlin köçən qızların cehizi də onun içərisinə yığılırdı. Üst hissəsində ağzını gözəmək üçün ilgəklər olurdu. Kilim və ya zili toxunuşlu olan məfrəşlər xovlu xalça texnikası ilə də toxunurdu.

Keçmişdə məişətdə, gündəlik həyatda geniş istifadə edilən digər bir xalça məmulatı isə çuvaldır. Çuvallar, adətən böyük ölçüdə olub, içərisində dənli bitkilər saxlanılırdı. Həmin xalça məmulatı xovlu və xovsuz texnika ilə toxunurdu. Ağız hissəsində torbanı büzmək üçün ip olurdu. Sevindirici haldır ki, müasir dövrümüzdə Novruz bayramı mərasimlərində kiçikölçülü çuvallardan bayram süfrələrinin bəzədilməsində istifadə edilir. Onun içərisinə qozfındıq, noğul qoyulur. Həmçinin nişanlı qızlara aparılan bayram xonçalarında da milliliyin əksi kimi belə çuvallardan istifadə edilir. Bu geri dönüş etmiş məmulatın istifadəsini genişləndirmək və yaymaq isə bizlərin borcudur.

İki gözdən və onları birləşdirən ara hissədən ibarət olan xurcun isə, təəssüf ki, məişət və təsərrüfatımızdan birdəfəlik çıxmışdır.



Qədimdə xurcundan minik heyvanlarının üzərində yük daşınması üçün istifadə edilirdi. Xurcunun ön (görünən) hissəsi zili, kilim kimi nəfis naxışlı xovsuz xalça texnikalarında toxunurdu. Arxa hissəsi isə sadə palaz toxunuşlu idi. İnsanların çiyinlərində yük daşıya bilmələri üçün isə daha kiçikölçülü heybələrdən istifadə edilirdi.

Məişətimizdən birdəfəlik çıxmış digər xalça məmulatları olan düyə başlıq, dəvənin belini örtmək üçün düyə xalı, çadırda karniz effekti yaradan yolam, çadırdan asılan kərəgə-torba, ocağın üzərindən asılan ocaqbaşı, çadırda belin söykənməsi üçün asılan püşti və s. kimi xalça məmulatları zamanında geniş istifadə edilirdi.

Elə xalça məmulatları var ki, çuval kimi onları da müasir həyata uyğunlaşdırıb yenidən istifadə etmək mümkündür. Belə məmulatlardan biri günümüzdə də istifadə edilən pərdədir. Qədimdə isə qalın yun parçadan, kilim və cecimlərdən pərdə kimi istifadə edilirdi. Bu pərdələr qapılara asılır və ya alaçığı otaqlara bölmək üçün istifadə olunurdu. Yun parçalardan hazırlanan pərdələr uzun üfüqi istiqamətdə olan ənənəvi zolaqlar və qotazlar ilə bəzədilirdi. Xovsuz xalçalardan hazırlanmış pərdələrdən bu gün də otaqlarımızın interyerində istifadə etmək olar. Yəni müasir pərdələrin teatral hissəsində zili, kilim, cecim, vərni, şəddə kimi xovsuz xalça növlərindən istifadə edərək interyerdə milli ab-hava yaratmaq mümkündür.

Gündəlik həyatımıza daxil edə biləcəyimiz daha bir xalça məmulatı isə xovlu və xovsuz texnika ilə toxunan çantalardır. Qədimdə asmaq üçün ipləri olan dördkünc kiçik həcmli torbanın içərisinə xırda əşyalar qoyulurmuş. Çantanın bəzəyi xalça ustasının zövqündən asılı idi. Bu əşya asanlıqla dövrümüzdə də praktik xarakter daşıya bilər.

Çağımıza uyğunlaşdırılaraq yenidən istifadə edilə biləcək əşyalardan biri də keçmişdə məişətdə geniş istifadə edilən balışüzüdür. Balışüzü həm kətan, həm də ipəkdən hazırlanırdı. Balış üzləri eyni zamanda xalça toxunuşlu da olurdu. Xalça toxunuşlu balış üzləri XX əsrin əvvəllərinə kimi məişətdə geniş istifadə edilirdi. Hazırda unudulmuş xalça məmulatları sırasındadır. Yerli istehsalda bu cür balış üzlərinə yer ayrılsaydı, gəlin köçən qızlarımız cehizliklərində xarici istehsal olan taxt örtükləri, çarpayı dəstləri əvəzinə məhz milli xüsusiyyətli məhsullardan yararlanmaq imkanına sahib olardılar.

Xalça məmulatlarını dövrümüzə uyğunlaşdırmağın digər bir yolu isə onlardan müasir tələbə uyğun aksesuarların hazırlanmasıdır. Bu işdə dizaynerlərin öhdəliyi böyükdür.

Unudulmuş xalça məhsullarına yeni həyat vermək üçün bu məmulatlara tələbi artırmaq prioritet olmalıdır. Bu məqsədlə interyer dizaynerləri öz layihələrində milli xarakterli guşələrin hazırlanmasına diqqət yetirsələr, yaxşı olar. Böyük tikinti şirkətləri həmin dizaynerlərlə əməkdaşlığa üstünlük verməlidirlər. Tekstil və xalça istehsalı sahələri də müasir əşyaları hazırlayarkən xalça məmulatlarını dövrün tələbinə uyğunlaşdıraraq istehsalına yer ayıra bilərlər. Məsələn, qədimdə yalnız varlıların istifadə etdiyi çarpayı örtüyündən dövrümüzdə kürsülərin, avtomobil oturacaqlarının örtülməsi üçün də yararlanmaq mümkündür. Bu yöndə təbliğat aparılmalı və istehsalatda cecim və kilim toxunuşlu örtüklərə yer ayrılmalıdır.

Bundan əlavə, geyim və aksesuar markalarının yaradılmasına yatırımlar edilə bilər. Geyim sektorunda qolsuz arxalıqların (jiletlər) uzunboğaz çəkmələrin hazırlanmasında xovsuz xalçadan və ya sırğa, saç aksesuarları, broşların dizaynında xalça məmulatlarından istifadə etmək olar.

Təsərrüfat sahəsində istifadəsi unudulmuş xalça məmulatlarına tələbat yaratmaq üçün müxtəlif milli bayram və festivalların təşkili zamanı iştirakçılara təklif olunacaq əşyaların xalça məmulatlarından hazırlanmasını şərtlərdən biri kimi irəli sürmək olar. Məsələn, Cıdır düzündə at yarışları zamanı atların bəzədilməsində xalça məmulatlarının istifadəsi bu sahənin diqqət mərkəzinə alınmasına stimul ola bilər.

Yuxarıda da qeyd etdiyim kimi, qədim zamanlarda köçəri əhalinin məişətində geniş istifadə edilən xovsuz xalça məmulatları müasir həyatın inkişafı ilə gündəlik həyatımızdan çıxmışdır. Həm bədii ornamental tərtibatı baxımdan qiymətli olan, həm də təbii tərkibli bu qədim xalça məmulatlarını müasir həyatımıza uyğunlaşdırmaq sənətşünasların qarşısında duran vacib öhdəlikdir. Xalça məmulatlarını müasir insanı qane edəcək tərzdə hazırlamaq və yenidən məişətimizə daxil etmək üçün təbliğat işləri də aparılmalı və bu kontekstdə sağlam məişət mühitinin yaradılmasının vacibliyi vurğulanmalıdır. Çünki çağdaş dövrdə bizi hər yerdə sağlamlığa zərər olan plastik və kimyəvi tərkibli məmulatlar əhatə edir. Geyimlərimiz, üzərində yatdığımız yorğan-döşək, məişət ləvazimatı, həmçinin qidalarımızdakı süni tərkibli çox zərərli maddələr xəstəliklərə səbəb olur. Xüsusən də əsrin bəlası xərçəngin yayılma və inkişaf səbəblərindən biri məhz bu cür zərərli və keyfiyyətsiz əşyalardır. Bu səbəbdən təbii tərkibli yun, pambıq, ipəkdən toxunmuş xalça və xalça məmulatlarına yeni həyat bəxş etmək həm də sağlamlığımızın qeydinə qalmaq deməkdir. Xalça məmulatlarını təbliğ edək, sağlam həyata qovuşaq...

**Sədaqət Əliyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının I kurs magistrantı**

## Xatirə təqvimi — 16–18 fevral

### Azərbaycan

**16 fevral 1913** (yeni təqvimlə 1 mart) – Xalq yazıçısı, ssenarist və dramaturq Ənvər Qafar oğlu Məmmədxanlı (1913 – 19.12.1990) Göyçayda anadan olub. "Şərqin səhəri", "Od içində", "Şirvan gözəli" pyeslərinin, nəsr əsərlərinin müəllifidir. "Fətəli xan", "Leyli və Məcnun", "Babək" filmlərinin ssenarisini yazıb.

**16 fevral 1916** – Tanınmış sənətşünas, akademik Əbdülvahab Rəhim oğlu Salamzadə (1916 – 19.8.1983) Şamaxıda doğulub. Azərbaycan memarlıq tarixinə dair tədqiqat əsərlərinin, "Abidələr danışır", "Azərbaycan memarlıq abidələri" və s. kitabların müəllifidir.

**16 fevral 1918** – Qəzəlxan şair, tərcüməçi Qəni Hüseynqulu oğlu Hüseynov (Həkim Qəni; 1918 – 10.6.2008) anadan olub. Məhəmməd Füzulinin qəzəllərinin rus dilinə ilk tərcüməçilərindəndir.

**16 fevral 1925** – Görkəmli memar Zivər bəy Əhmədbəyov (1873-1925) vəfat edib. Təzəpir məscidinin layihə müəllifidir. Cümhuriyyət dövründə Bakının baş memarı olub.

**16 fevral 1945** – Opera müğənnisi, aktyor, rejissor, pedaqoq, Xalq artisti Hüseynqulu Məlik oğlu Sarabski (Rzayev; 20.3.1879 – 1945) vəfat edib. "Leyli və Məcnun" operasında Məcnun rolunun ilk və 30 ilə yaxın əvəzsiz ifaçısı olub.

**17 fevral 1895** – Qəzəlxan şair, Əməkdar incəsənət xadimi Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov; 1895 – 1.10.1965) Bakının Masazır kəndində doğulub. Nizami, Xaqani, Füzuli, Nəvai və b. şairlərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

**17 fevral 1919** – Ədəbiyyatşünas, mətnşünas, klassik poeziyanın bilicisi Əli Fəhmi (1919 – 13.3.1975) Bakının Sabunçu qəsəbəsində anadan olub.

**17 fevral 1920** – Dilçi-filoloq, professor, Əməkdar elm xadimi Əlövsət Zakir oğlu Abdullayev (1920-1993) anadan olub.

**17 fevral 1926** – Xalq artisti Sofya Həsən qızı Hüseynova (1926 – 30.7.2015) Naxçıvanda doğulub. Naxçıvan teatrının ilk azərbaycanlı aktrisası Xədicə Qazıyevanın qızıdır, uzun illər bu sənət ocağında çalışıb.

**17 fevral 1945** – Əməkdar artist Vəli Allahverdi oğlu Babayev (1945-1989) Naxçıvanda anadan olub. Naxçıvan Musiqili Dram Teatrının baş rejissoru işləyib.

**17 fevral 1958** – Tanınmış aktyor Xeyri Osman oğlu Əmirzadə (1893-1958) vəfat edib. Krım türküdür. 1930-cu illərdən Azərbaycanda fəaliyyət göstərib. "Kəndlilər", "Səbuhi", "Bəxtiyar" və s. filmlərdə çəkilib.

**18 fevral 1201** – Böyük riyaziyyatçı, astronom və filosof Nəsirəddin Məhəmməd ibn Həsən Tusi (1201 – 23.6.1274) Həmədan şəhərində anadan olub. Tusinin yaratdığı Marağa rəsədxanası uzun illər Şərqin mötəbər elm mərkəzlərindən olub. "Əxlaqi-nasiri" etik traktatı, fəlsəfəyə dair əsərlərin müəllifidir.

**18 fevral 1924** – Əməkdar artist Osman İsmayıl oğlu Hacıbəyov (1924-1979) Şuşa şəhərində doğulub. Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

**18 fevral 1925** – Publisist, tərcüməçi Hacı Əliheydər oğlu Hacıyev (1925-2008) anadan olub. Uzun illər Azərbaycan Jurnalistlər Birliyinə rəhbərlik edib.

**18 fevral 1934** – Yazıçı-dramaturq, publisist Şamil Xurşud (Şamil Xurşud oğlu Fərzəliyev; 1934-1986) Ucar rayonunda (əslən Ermənistanın Sisyan rayonunun Ağudi kəndindəndir) anadan olub. Əsərləri: "Ağaclar kəsilmədi", "Naxırçı çörəyi", "Yolayrıcında" və s.

**18 fevral 1947** – Əməkdar rəssam Ənvər Vahid oğlu Qarayev (1947 – 29.1.2011) Şəkidə anadan olub. Dekorativ-tətbiqi sənət, xalça, batika, parça üzərində tikmə texnikasının mahir ustası idi.

### Dünya

**16 fevral 1845** – Amerika yazıçısı Corc Kennan (George Kennan; 1845-1924) anadan olub.

**16 fevral 1926** – Britaniya kinorejissoru, "Oskar" ("Gecəyarısı kovboy", 1970) mükafatçısı Con Şlezinger (John Richard Schlesinger; 1926-2003) anadan olub.

**17 fevral 1600** – İtalyan filosofu və şairi Cordano Bruno (Giordano Bruno; 1548-1600) inkvizisiyanın (Katolik kilsəsinin məhkəməsi) qərarı ilə edam edilib.

**17 fevral 1906** – Rus-sovet yazıçısı, uşaqlar üçün çoxsaylı əsərlərin, film ssenarilərinin müəllifi Aqniya Lvovna Barto (1906-1981) anadan olub.

**18 fevral 1838** – Avstriya filosofu, pozitivizmin tanınmış nümayəndəsi Ernst Max (Ernst Mach; 1838-1916) anadan olub.

**18 fevral 1932** – Çex əsilli Amerika kinorejissoru Miloş Forman (Milosh Forman – Jan Tomash Forman; 1932 – 13.4.2018) anadan olub. "Qu quşunun yuvası üzərində uçuş" filmi (1975) 5 nominasiyada, "Amadey" filmi (1984) 8 nominasiyada "Oskar" mükafatına layiq görülüb.

**18 fevral 1934** – Rusiyanın Xalq artisti, sirk ustası Muxtarbek Kantemirov (1934-2017) anadan olub. "Azərbaycanfilm"də "Qorxma, mən səninləyəm!" filmində çəkilib.

**Hazırladı: Vüqar Orxan**

№13 (1886)
16 fevral 2022
www.medeniyyet.az

# TÜRKSOY Fikrət Əmirovun 100 illiyi münasibətilə Ukraynada konsert keçirib

## 2022-ci il təşkilat tərəfindən "Fikrət Əmirovu anma ili" elan edilib



*əvvəli səh. 1-də*

DVAK-ın sədri Nəcəf Əhmədov, Dnepr Şəhər Şurasının katibi Aleksandr Sanjara çıxışlarında Fikrət Əmirov yaradıcılığından söhbət açıblar və mədəni tədbirlərin ölkələr arasında sıx əməkdaşlıq yaratdığını vurğulayıblar.

Rəsmi hissədən sonra səhnə sənətçilərə verilib. Konsert proqramı orkestrin ifasında F.Əmirovun möhtəşəm "Azərbaycan kapriççiosu" ilə başlayıb.

Proqramda F.Əmirovun yaradıcılığından "Kor ərəbin mahnısı", "Azərbaycan elləri", "Nizami haqqında dastan" əsərləri də yer alıb. Həmçinin Ü.Hacıbəylinin N.Gəncəvinin sözlərinə yazdığı "Sevgili canan" romansı Azərbaycanın Əməkdar artisti, vokalçı İlham Nəzərovun ifasında səslənib.

Konsertin sonunda Düsen Kaseinov ifalarına görə sənətçilərə təşəkkürünü bildirib. Dirijor Yalçın Adıgözəlov, orkestr üzvləri və vokalcı İlham Nəzərova plaketlər təqdim edilib.

***

Qeyd edək ki, bir gün öncə, fevralın 11-də Ukraynanın Dnepr şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə Ukrayna dilinə tərcümə olunmuş "Xəmsə"dən seçmələr kitabının və "Nizami Gəncəvini oxuyaq" bədii albomunun (ingilis dilində) təqdimat mərasimi keçirilib. "Xəmsə"dəki poemalardan nümunələrin toplandığı kitab Azərbaycanın Ukraynadakı Səfirliyi, bədii albom isə TÜRKSOY tərəfindən hazırlanaraq nəşr edilib.

Dnepr Texniki Milli Universitetinin nəzdində Ukrayna-Azərbaycan Mədəniyyət və iş mərkəzində gerçəkləşən tədbirdə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, ölkəmizin Ukraynadakı səfiri Elmira Axundova, universitetin rektoru Oleksandr Azyukovski, DVAK-ın sədri Nəcəf Əhmədov çıxış ediblər.



Tədbir zamanı tanınmış azərbaycanlı heykəltəraş, Ukraynanın Xalq rəssamı Katib Məmmədova və Ukraynanın Taras Şevçenko adına Milli mükafatın laureatı, Azərbaycan əsilli Qriqori Hüseynova TÜRKSOY-un "Nizami Gəncəvi" xatirə medalı təqdim olunub.

Nizami Gəncəvi yaradıcılığı ilə bağlı esse müsabiqəsinin qalibləri DVAK tərəfindən mükafatlandırılıb.

Tədbirin bədii hissəsində tələbələr Nizaminin poeziyasından parçalar söyləyib, ukraynalı pianoçu Anna Akimenko və azərbaycanlı vokalçı İlham Nəzərov Ü.Hacıbəylinin Nizaminin sözlərinə yazdığı "Sənsiz" və "Sevgili canan" əsərlərini ifa ediblər.

**Mehparə Sultanova**
**Ankara**

# Skrinlayf festivalı – ilk dəfə Tatarıstanda



Bu yay Tatarıstanın Əlmət (Almetyevsk) şəhərində skrinlayf formatlı filmlərin beynəlxalq festivalı keçiriləcək. Bu barədə kinorejissor Timur Bekmambetov "Skrinlayf: yeni kino dilinin axtarışında" kitabının təqdimat mərasimində məlumat verib.

Skrinlayf (screen life – ekranda həyat) bütün hadisələr və təsvir kompüter, planşet, yaxud smartfon ekranının çərçivəsinə sığan film – kino nəqli formatıdır. Bu formatı Rusiyada daha çox populyarlaşdıran isə rejissor-prodüser Timur Bekmambetovdur.

Kino forumu barədə danışan rejissor deyib: "Biz zənn edirdik ki, bu festival ya Silikon vadisində, ya da hardasa, yəni uzaqlarda baş tutacaq. Amma elə oldu ki, bizim təklifimizə Tatarıstandakı neft şirkətləri birinci səs verdilər...".

Bekmambetovun dediyinə görə, bu tədbir bütün dünyadan skrinlayf formatında film yaradıcılarını bir araya gətirməlidir. Təxminən iyul ayına nəzərdə tutulan festivalda film nümayişi ilə yanaşı dəyirmi masanın keçirilməsi də planlaşdırılır.

**Gülcahan**

# Qazax rejissorun "Akın"ı "Berlinale"də nümayiş olunub

Xəbər verdiyimiz kimi, Almaniya paytaxtında 72-ci "Berlinale" – Berlin Beynəlxalq Film Festivalı keçirilir. Fevralın 10-da başlayan kinofestivalın "Forum" proqramında Qazaxıstan istehsalı olan "Akın" filminin Avropa premyerası da baş tutub.




Ekran əsəri Qazaxıstan Mədəniyyət və İdman Nazirliyinin sifarişi, "Milli kinoya dövlət dəstəyi fondunun dəstəyi ilə Ş.Aymanov adına "Qazaxfilm" Kinostudiyasında çəkilib.

Quruluşçu rejissor Darejan Omirbayev Berlinə gedə bilmədiyindən filmi prodüser Yuliya Kim və aktrisa Quljan Tuzelbayeva təqdim ediblər. Təqdimat zamanı Y.Kim deyib: "Biz "Berlinale"də iştirak etməkdən məmnunuq. Bizim filmimiz poeziya, geniş istehlakçılıq dövründə tab gətirməyə cəhd edən çox incə və incidilən sənət barədədir. Məncə, yaradıcı hər kəs, öz işinin əsl ustadları bu filmdə özlərini görə biləcəklər...".

Qeyd etmək lazımdır ki, Qazaxıstan filmi Berlində maraqla qarşılanıb. Anşlaqla keçən premyeraya biletlər bir neçə gün öncədən satılıb.

Berlin kinofestivalı fevralın 20-dək davam edəcək.

# Bütün mahnılarını 250 milyon dollara satıb



Britaniyalı musiqiçi Stinq bütün mahnılarının müəllif hüquqlarını "Universal Music Group" (UMG) şirkətinə satıb. Müqavilə təxminən 250 milyon dollara başa gəlib.

Şirkət müğənninin bütün bəstələrinin, o cümlədən son albomu "The Bridge"dən olan treklərin master surətlərini almaq hüququnu əldə edib. UMG həmçinin "The Police" qrupun tərkibində çalışmış və Stinq tərəfindən yazılmış bütün musiqilərin hüquqlarını əldə edib. Mahnıların nəşr hüquqları "Universal Music Publishing Group"a verilib.

"Mənim üçün çox vacibdir ki, yaradıcılıq irsim dəyərli və hörmətli bir evə sahib olsun. Bu, təkcə sadiq pərəstişkarlarım ilə yeni formada əlaqə qurmaq üçün deyil, həm də mahnılarımı yeni auditoriyaya, musiqiçilərə və nəsillərə çatdırmaq üçündür", – deyə Stinq bildirib.

**Cavid**

# Venesiya karnavalı – ikiillik fasilədən sonra

## Pandemiyalı maska rejimində maskalı karnaval

Maskalı karnaval olaraq da bilinən Venesiya karnavalının ikiillik fasilədən sonra, özü də pandemiyalı maska rejimində keçirilməsi xüsusi maraq doğurur.



Yeni karnaval qəhrəmanları öz tarixi maskalarında, kütləvi tamaşaçı-izləyicilər də tibbi maskalarda.

Yerli mətbuata görə, builki karnavalda iştirak etmək üçün 50 minədək insan Venesiya şəhərinə gəlib.

Qeyd edək ki, Venesiya karnavalı 2020-ci və 2021-ci illərdə koronavirus pandemiyası səbəbindən keçirilməmişdi.

Martın 1-dək davam edəcək gülüş və tamaşa ilə bol olan bayram əhval-ruhiyyəli karnavalın əsas atributu, təbii ki, maskalardır. Karnaval üçün libaslar isə adətən bir il öncədən sifariş olunur.

1268-ci ildən bəri qeyd olunan Venesiya karnavalı müəyyən vaxtlarda qadağan olunsa da, 1979-cu ildən bəri hər il keçirilir. Əvvəllər sosial sinfi ayrı-seçkiliyi aradan qaldırmaq üçün istifadə olunan maskalar indi Venesiya karnavalının ayrılmaz tərkib hissəsinə çevrilib. Karnavalın keçirildiyi vaxt turistlərin Venesiyanı ən çox ziyarət etdiyi dövrdür.

# Soljenitsinin arxivini 4,4 milyon rubla alıblar



Rusiyalı yazıçı, ədəbiyyat üzrə Nobel mükafatçısı Aleksandr Soljenitsinin (1918-2008) yazı arxivi hərracda 4,4 milyon rubla (təxminən 57,5 min dollar) satılıb.

Rusiya mediasının məlumatına görə, yazıçının hərraca öz əli ilə yazılmış "QULAQ arxipelaqı" romanı 350 min rubl başlanğıc qiyməti ilə 1,3 milyon rubla satılıb.

Ümumilikdə, hərrac zamanı arxivin qiyməti 1,76 milyon rubldan 4,4 milyon rubla yüksəlib. Arxivə avtoqraflar, müəllif yazıları daxildir.

# Frensis Bekonun 47 milyon dollarlıq triptixi

İngilis rəssamı Frensis Bekonun "Triptix, 1986-1987" adlı tablosu ilkin qiyməti 35 milyon funt-sterlinq (47 milyon dollar) olaraq hərraca çıxarılıb. "Christie's" hərrac evində satış martın 1-də keçiriləcək.



"Frensis Bekonun son böyük sənət nailiyyətlərindən biri kimi qəbul edilən bu əsər zamanın təbiəti və insanın tənhalığı haqqında düşüncələrin nəticəsidir", – deyə hərrac evindən bildirilib.

Triptixin sol panelindəki kostyumlu kişi təsviri ABŞ Prezidenti Vudro Vilsonun 1919-cu ildə Versal müqaviləsinin (Birinci Dünya müharibəsinin yekunlarına dair) imzalanmasından sonra qəzetdən götürülmüş fotoşəklinə əsaslanır. Sağ paneldəki təsvir sovet Rusiyasının rəhbərlərindən biri, Stalinin əlindən xaricə qaçan Lev Trotski 1940-cı ildə Meksikada öldürüldükdən sonra onun ofisinin fotoşəklindən yaradılıb. Mərkəzi paneldəki adamın üzü isə rəssam Frensis Bekonun yaxın dostu Con Edvardsı xatırladır.

Qeyd edək ki, Frensis Bekon (1909-1992) fiqurativ (obrazlı) sənət ustasıdır. Onun əsərlərində əsas mövzu refraktorlu insan bədənidir. Rəssamın ekstravaqant, bəzən şokedici tabloları kolleksiyaçılar tərəfindən yüksək qiymətləndirilir. 2015-ci ildə rəssamın "Avtoportret üçün iki eskiz" (1977) triptixi Londonda 22,4 milyon dollara satılıb.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 159 il əvvəl...




17 fevral 1863-cü ildə Cenevrədə Beynəlxalq Qırmızı Xaç Komitəsi təsis edilib. Hazırda dünyanın bütün "qaynar" nöqtələrində humanitar fəaliyyət göstərən təşkilatın təşəbbüskarı və ilk rəhbəri isveçrəli iş adamı, ictimai xadim Anri Dünan (Jean Henri Dunant) olub.

### 106 il əvvəl...

**16 fevral 1916-cı ildə** I Dünya müharibəsi gedişində Qafqaz cəbhəsində hücumu davam etdirən Rusiya qoşunları Türkiyənin Ərzurum bölgəsini işğal ediblər. Rusiya bunadək Türkiyənin 1877-1878-ci illər müharibəsində itirdiyi Qars və Ərdəhan bölgələrinə də nəzarət edirdi. Ərzurumun işğalı ilə bölgədəki erməni qüvvələrinin türk əhalisinə qarşı hücumları da genişlənib. Türkiyə 1918-ci ildə hər üç bölgəni Rusiyadan geri ala bildi.

### 89 il əvvəl...

**16 fevral 1933-cü ildə** Almaniyanın gələcək təcavüzü qarşısında bir araya gələn Çexoslovakiya, Rumıniya və Yuqoslaviya "Kiçik Antanta" adlı ittifaq yaradıblar. Lakin bu ittifaq onları 1939-cu ildə faşist Almaniyasının işğalından xilas edə bilmədi.

### 75 il əvvəl...

**17 fevral 1947-ci ildə** "Amerikanın səsi" radiosunun dalğaları keçmiş SSRİ məkanına yayılmağa başlayıb. 40 ildən artıq müddətdə radiostansiya sovet dövləti əleyhinə təbliğat savaşının ruporu olub.

### 70 il əvvəl...

**18 fevral 1952-ci ildə** Türkiyə ilə Yunanıstan NATO üzvlüyünə qəbul olunub. Kipr və Egey dənizi məsələlərində aralarında mübahisə olan iki dövlətin eyni vaxtda alyansa qəbulu NATO-nun prinsipial mövqeyi idi.

### 57 il əvvəl...

**18 fevral 1965-ci ildə** Böyük Britaniyanın Afrikadakı müstəmləkəsi olan Qambiya dövlət müstəqilliyini elan edib.

### 43 il əvvəl...

**17 fevral 1979-cu ildə** Çin qoşunları Vyetnam ərazisinə daxil olaraq onun bir hissəsini işğal edib. Beynəlxalq ictimaiyyətin kəskin etirazını doğuran işğal martın 5-dək davam etdi.

### 30 il əvvəl...

**16 fevral 1992-ci ildə** Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO – Economic Cooperation Organization) üzv olub. Təşkilatın Tehranda keçirilən toplantısında keçmiş SSRİ-nin daha beş müsəlman respublikası – Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Tacikistan da üzvlüyə qəbul edilib. ECO 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən təsis edilib. Hazırda Əfqanıstan da daxil olmaqla 10 ölkəni birləşdirir.

**17 fevral 1992-ci ildə** erməni silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağın bölgəsinin Xocavənd (Martuni) rayonunda azərbaycanlıların yaşadığı Qaradağlı kəndini işğal ediblər. Bunadək kənd dəfələrlə ermənilərin hücumlarına məruz qalmışdı. İşğal zamanı kənddə olan 118 nəfər əsir götürülmüş, onların 68 nəfəri daha sonra öldürülmüşdü.

### 13 il əvvəl...



**18 fevral 2009-cu ildə** Bakıda "İslam Mədəniyyətinin Paytaxtı 2009" ilinin açılış mərasimi keçirilib. Bakı şəhəri İslam ölkələri elm, təhsil və mədəniyyət təşkilatı – İCESCO-nun 2007-ci ildə qəbul etdiyi qərarla "İslam Mədəniyyətinin Paytaxtı" elan olunmuşdu.

**Hazırladı: V.Orxan**

Azərbaycan İstiqlal Muzeyinin kollektivi
Muzey Mərkəzinin direktoru Liana Vəzirovaya anası
**Svetlana Anatolyevna Abbakumovanın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 436
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641